


## Mövlud Çavuşoğlu: "Erməni diasporu Ermənistanla normallaşmanı dəstəkləmir"

2

## "Ölkələrimiz arasında iqtisadi sferada əlaqələr uğurla inkişaf edir"



2

*Prezident İlham Əliyev Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirini qəbul edib*

Səs

№ 066 (6507) 16 aprel 2022-ci il. Qiymәti 60 qәpik

2




# Ermənistanın Minsk qrupuna hesablanmış xam xəyalları batıb...

*Daha heç bir bəhanə də qalmayıb*

***Minsk qrupunun tarixin arxivinə köç etməsinin ardınca son vaxtlara qədər bu qurmdan imdad alacağını sanan erməni tərəfinin daha bir yalanı üzə çıxıb. Məlum olub ki, İrəvana səfər etmiş ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Bris Rokfeyl sən demə regiona tamam başqa statusla gəlib.***

## DİQQƏT: COVID pasportu ləğv edilir

6




*"Koronavirus pandemiyası ilə bağlı məhdudiyyətlər mərhələli şəkildə aradan qaldırılır". SİA xəbər verir ki, bu sözləri TƏBİB-in İdarə Heyətinin sədri vəzifəsini icra edən Vüqar Qurbanov jurnalistlərə açıqlamasında bildirib.*

## MEDİA-nın İcraçı direktoru BDU-nun Jurnalistika fakültəsinin tələbələri ilə görüşüb

5



15



## Sosial mənzil sisteminə kibermüdaxilə edən "İT uşaqları" yaxalandı

*Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi- Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsində 442 mənzilin 30.03.2022-ci il tarixində güzəştlə satışı prosesi yerinə yetirilərkən kənardan müxtəlif şəxslər tərəfindən informasiya texnologiyaları sahəsində xüsusi kompüter proqram təminatlarından istifadə edilməklə mənzillərin seçimi prosesinə müdaxilə halları müşahidə...*

9



## Ölkəmizdə fikir, söz və məlumat azadlığına xüsusi önəm verilir

Fikir, söz və məlumat azadlığı demokratiyanın ən əsas göstəricilərindəndir və məhz bu səbəbdən cəmiyyətin formalaşmasında mühüm əhəmiyyət kəsb edir...

## "Hesabat Azərbaycanın əlini gücləndirə bilər"

6




"ABŞ Dövlət Departamentinin rəsmi saytında 2021-ci il dünya ölkələrində insan hüquqlarının vəziyyətinə dair illik hesabatın Ermənistan hissəsində 2020-ci ildə etnik erməni qüvvələrinin bəzi azərbaycanlı əsirləri qanunsuz şəkildə qətlə yetirdiklərinə...





## İnsana qoyulan ad onun həyatına necə təsir edir?

11

*İnsan özünə aid olan hər şeyi daha çox qiymətləndirir. İnsanın bəlkə də ən dəyər verdiyi amil onun adıdır...*

## Məşhur serial 2023-cü ildə yayımlanacaq

16

***Baş rollarda məşhur türk aktyor Haluk Bilginer, Yasemin Kay Allen və britaniyalı aktyor Ethan Kayın çəkildiyi "Türk detektivi" detektiv dramının çəkilişləri bu ay İstanbulda...***

# "Ölkələrimiz arasında iqtisadi sferada əlaqələr uğurla inkişaf edir"

## Prezident İlham Əliyev Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirini qəbul edib

***Prezident İlham Əliyev dünən Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvilini qəbul edib. Dövlətimizin başçısı Azərbaycan-Gürcüstan əlaqələrinin geniş gündəliyə malik olduğunu qeyd edərək həm ikitərəfli, həm də çoxtərəfli formatda əldə olunmuş razılıqların uğurla həyata keçirildiyini bildirib və bu baxımdan, ilk növbədə, ölkələrimizin icra etdiyi birgə nəqliyyat və enerji layihələrinin önəmini vurğulayıb.***



Prezident İlham Əliyev Azərbaycanla Gürcüstan arasında yükdaşımalarının həcminin, mövcud infrastrukturun buraxılış qabiliyyətinin artırılmasının zəruriliyini qeyd edib və bunun üçün yaxşı əsasın yaradıldığını diqqətə çatdırıb. Dövlətimizin başçısı, eyni zamanda, ticarət dövriyyəsinin artımından məmnunluğunu ifadə edərək onun həcminin daha da çoxaldılması perspektivlərinin müəyyənləşdirilməsinin vacibliyini qeyd etdi.

Ölkələrimiz arasında sıx əlaqələrin mövcudluğunu vurğulayan Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili bütün sahələrdə, o cümlədən iqtisadi sferada əlaqələrin uğurla inkişaf etdiyini bildirib, həmçinin ölkələrimiz arasında həyata keçirilən enerji və nəqliyyat layihələrinin həm regional, həm də qlobal əhəmiyyətini qeyd edib. Gürcüstanlı nazir, eyni zamanda, ticarət dövriyyəsinin artırılması üçün də böyük potensialın mövcud olduğunu bildirib.

Görüşdə kənd təsərrüfatında və iqtisadiyyatın digər sahələrində birgə layihələrin həyata keçirilməsinin əhəmiyyəti, Azərbaycan-Gürcüstan iqtisadi əməkdaşlığının hər iki ölkənin iqtisadi inkişafında vacib rolu qeyd edildi.

## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar nazirini qəbul edib



***Prezident İlham Əliyev dünən Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri, Abu-Dabi Milli Neft Şirkətinin idarəedici direktoru, BƏƏ-nin iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi, "Masdar" şirkətinin sədri Sultan Əhməd Əl Caberi qəbul edib.***

Ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi, investisiya qoyuluşu və digər sahələrdə uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev, bu yaxınlarda Abu-Dabinin vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Məhəmməd bin Zayed Əl Nahyanla telefon danışığını xatırladaraq həmin söhbət zamanı əməkdaşlığımızın daha da genişləndirilməsi üçün birgə səylərin artırılmasının vacibliyinin qeyd olunduğunu bildirib.

Bu ilin mart ayında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimini xatırladan dövlətimizin başçısı həmin layihənin gələn ilin sonuna yaxın işə düşəcəyinə ümidvarlığını ifadə edib. Prezident İlham Əliyev bu layihənin icrasını qarşılıqlı maraqların və imkanların təmin edilməsinin yaxşı nümunəsi kimi dəyərləndirib.

Dövlətimizin başçısı bildirdi ki, ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu nəzərə alınaraq birgə müəssisələrin yaradılması, investisiya imkanlarının müəyyənləşdirilməsi və digər müxtəlif layihələrdə iştirakın da daxil olduğu gələcək birgə iqtisadi gündəliyin reallaşdırılması mövcud potensialın maksimum dərəcədə təmin edilməsi işinə xidmət edə bilər.

Xoş sözlərə görə minnətdarlığını bildirən qonaq Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri Məhəmməd bin Rəşid Al Maktumun və Abu-Dabinin vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Məhəmməd bin Zayed Əl Nahyanın salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırıb.

Qonaq vurğulayıb ki, Məhəmməd bin Zayed Əl Nahyan ölkələrimiz arasında münasibətlərdə əldə edilmiş inkişafı yüksək qiymətləndirir, bu əlaqələrin önəmini xüsusi qeyd edir və tərəfdaşlığımızın daha da gücləndirilməsi əzmindədir.

## Mövlud Çavuşoğlu: "Erməni diasporu Ermənistanla normallaşmanı dəstəkləmir"




***Qarabağ Zəfəri çərçivəsində Azərbaycanı dəstəklədiyimiz üçün Türkiyəyə qarşı ədalətsizliklər olub. Müdafiə sənayesi sahəsində istehsalata və ixracata qarşı tətbiq olunun sanksiyalar aradan qaldırılmalıdır. AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "NTV" telekanalının yayımladığı xüsusi buraxılışda canlı yayımda ifadə edib.***

Hazırda Ermənistanla aparılan normallaşma prosesinə dair vəziyyət barədə ətraflı məlumat verən nazir Mövlud Çavuşoğlu Azərbaycan və Türkiyənin qarşılıqlı məsləhətləşmə çərçivəsində addımlar atdığını vurğulayıb. O, bu istiqamətdə əhəmiyyətli işlər görüldüyünü diqqətə çatdıraraq deyib ki, erməni diasporu Ermənistanla normallaşmanı dəstəkləmir.

# ATƏT-in Minsk qrupu tərəfsiz və ədalətli olmalı idi

## *İlham Əliyev: "ATƏT-in Minsk qrupuna münaqişənin həlli üçün verilmiş mandat de-yure qüvvədə olsa da, de-fakto artıq etibarsız sayıla bilər"*

***Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məqsədilə təsis edilən ATƏT-in Minsk Qrupu yarandığı gündən münaqişənin həlli yolunda heç bir səmərəli təşəbbüs göstərmədi. Azərbaycan bu 28 illər ərzində ATƏT-in Minsk Qrupunun həmsədrlərindən ədalətli mövqe, işğalçıya təsir və təzyiq, işğala son qoyulması üçün əməli fəaliyyət gözlədi. Amma bunların nəinki heç biri olmadı, hətta Ermənistana BMT qətnamələrinin yerinə yetirilməsi ilə bağlı azacıq da olsa, beynəlxalq təzyiq belə göstərilmədi.***



Həmsədrlər Ermənistana təzyiq göstərmək, beynəlxalq hüquqdan irəli gələn müvafiq sanksiya rejimlərini tətbiq etmək əvəzinə, faktiki olaraq Ermənistanın işğalçılıq siyasətinə göz yumdular. ATƏT-in Minsk qrupu 28 il ərzində münaqişənin hərbi həll yolunu inkar edərək Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaradılmış status-kvonu Azərbaycana qəbul etdirməyə və münaqişəni diplomatik-siyasi yollarla nizamlamağa uğursuz cəhdlər etmişdi. Nəticədə, etimadı itirən bu qurumun fəaliyyətsizliyi problemin sülh yolu ilə deyil, hərbi əməliyyatlarla həllinə gətirib çıxardı. Və 44 günlük Vətən müharibəsində ərazilərimizin işğaldan azad olunması uğrunda apardığımız mübarizə bütün beynəlxalq qanunlara görə ədalətli olmaqla, dünya erməniliyinə, erməni təəssübkeşliyinə böyük zərbə oldu. Prezident İlham Əliyev bu qələbənin müəllifi kimi torpaqlarımızı işğaldan məhz "Dəmir yumruq" siyasəti yolu ilə azad edərək Ermənistanın müdafiəsinə qalxmış dövlətlərə və siyasi mərkəzlərə öz yerlərini göstərdi. Beləliklə, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini, ATƏT-in qərarlarını yerinə yetirməklə 30 ilə yaxın idi ki, təhdid mənbəyi olan münaqişəyə 2020-ci il sentyabrın 27-də Ali Baş Komandan, Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasəti ilə Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlayaraq 44 gün ərzində işğal altındakı torpaqlarını azad etdi, ərazi bütövlüyünü təmin etdi.

### "VASİTƏÇİLƏR VƏZİYYƏTLƏ BAĞLI NECƏ FİKİRDƏ OLMAQLARINDAN, BİZİMLƏ VƏ YA ERMƏNİSTANLA ƏLAQƏLƏRİNİN NƏ DƏRƏCƏDƏ YAXIN OLMAĞINDAN ASILI OLMAYARAQ NEYTRAL OLMALIDIRLAR"

Prezident İlham Əliyev İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Lindenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bildirmişdir ki, ATƏT-in Minsk Qruppu fəaliyyətə başladığı andan hər zaman Azərbaycanın əleyhinə olub: "Yəni onların əvvəldən fəaliyyəti, mövqeyi bu gün də daxil olmaqla hər zaman bizim əleyhimizə olub. Hesab edirəm ki, gələcəkdə də belə olacaq, heç bir dəyişiklik edilməyəcək. Buna görə Ermənistanla bizim aramızda təxribatlar, gərginliklər, anlaşmazlıqlar, ümumiyyətlə, hər hansı bir problemlər baş verdikdə Azərbaycan bu məsələləri özü yoluna qoyur, özü də həll edir. Bizə ATƏT-in Minsk qrupu kimi vasitəçi lazım deyil. Çünki onların mövqeyi ortadadır.

### "MİNSK QRUPUNUN MANDATI ETİBARSIZ SAYILA BİLƏR"

"ATƏT yeni reallıqları tam qəbul edib. Bu yaxınlarda ATƏT-in fəaliyyətdə olan sədri ilə mənim görüşüm olub və görüş bir daha onu göstərdi ki, ATƏT də yeni reallıqları qəbul edir və bu da çox əlamətdar hadisədir".

Bu sözləri Prezident İlham Əliyev aprelin 12-də cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə deyib. Dövlət başçımız xatırladıb ki, ATƏT-in Minsk qrupu İkinci Qarabağ müharibəsinə qədər 28 il fəaliyyətdə idi və həmsədr ölkələr bu illər ərzində Azərbaycana, Ermənistana bəlkə də yüzlərlə səfər etmişdilər: "Nəticə də göz qabağındadır, nəticə sıfır. Bunun səbəbləri də Azərbaycan ictimaiyyətinə məlumdur. Bu haqda çox danışmaq istəməzdim. Nəticə göz qabağındadır və bir daha demək istəyirəm ki, nəticə sıfır və Azərbaycan bu münaqişəni özü həll edib. Hərbi-siyasi yollarla həll edib".Dövlət başçımızın sözlərinə görə, ATƏT-in Minsk qrupuna münaqişənin həlli üçün verilmiş mandat de-yure qüvvədə olsa da, de-fakto artıq etibarsız sayıla bilər: "Bizim xarici işlər nazirimiz Minsk qrupunun həmsədrləri ilə müxtəlif beynəlxalq tədbirlərdə görüşmüşdür və biz deyirdik ki, siz bizə deyin görək, nə ilə məşğul olmaq istəyirsiniz? Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan ərazisində Dağlıq Qarabağ inzibati ərazisi yoxdur və olmayacaq. Siz nə ilə məşğul olmaq istəyirsiniz, deyin, biz də bilək və öz fikrimizi bildirək".

Prezident qeyd edib ki, bir ildən çox müddətdə bu məsələ ilə bağlı bizə hər hansı bir təklif verilməyib. İndiki şəraitdə isə Minsk qrupu, onun həmsədrlər formatı faktiki olaraq qeyri-funksional vəziyyətdədir. Bunu artıq bu həmsədr ölkələrin yüksəkvəzifəli şəxsləri bildirirlər və belə olan halda, əlbəttə ki, hər hansı bir qrup şəklində fəaliyyətdən söhbət gedə bilməz.

"Hesab edirəm ki, ATƏT bir mötəbər beynəlxalq təşkilat kimi öz rolunu oynaya bilər. Bu yaxınlarda qeyd etdiyim kimi, ATƏT-in fəaliyyətdə olan sədri ilə görüşlər əsnasında mən bildirmişdim ki, vətəndaş cəmiyyətinin nümayəndələri, media nümayəndələri, digər ictimai rəyə nüfuz, yəni təsir edə bilən şəxslər ATƏT-in fəaliyyəti çərçivəsində, yəni ki, bu format çərçivəsində görüşlər keçirə bilərlər ki, Ermənistan-Azərbaycan əlaqələri normallaşsın. İndi gündəlikdə duran məsələ budur. Dağlıq Qarabağ münaqişəsi həll olunub. İndi məsələ Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasıdır və istənilən beynəlxalq təşkilat, bu sahədə öz töhfəsini verə bilən təşkilat, əlbəttə ki, qəbuledilləndir",- Prezident vurğulayıb.

### METYU BRAYZA: "Aİ ATƏT-İN MİNSK QRUPUNUN DE-FAKTO "ÖLÜMÜ"NDƏN SONRA YARANMIŞ BOŞLUĞU DOLDURMAĞA ÇALIŞIR"

"İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev açıq şəkildə göstərdi ki, Ermənistanla ölkəniz arasında münasibətlərin normallaşmasına imkan verəcək sülh müqaviləsinin bağlanmasına tərəfdardır".Bunu ABŞ-ın Atlantik Şurasının böyük elmi işçisi, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri, beynəlxalq ekspert Metyu Brayza Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və Aİ Şurasının rəhbəri Şarl Mişel arasında Brüsseldə baş tutmuş görüşü şərh edərkən bildirib.Onun sözlərinə görə, Ermənistanın Baş naziri Nikol Paşinyan da bu istiqamətdə hərəkət etmək istəsə də, bir vaxtlar işğal altında olan Azərbaycan ərazilərini geri qaytarmaq kimi əlçatmaz arzuyla yaşayan müxalifət səbəbindən bunu edə bilmədi: "Onların bu arzusu da öldü", - o əlavə edib.

O həmçinin bildirib ki, Avropa Şurasının Prezidenti Şarl Mişelin Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla üçtərəfli görüşünün nəticələrinə əsasən səsləndirdiyi bəyanat həqiqətən yaxşı əlamətdir və ölkələrin sülh müqaviləsinin imzalanmasına yaxınlaşdıqlarından xəbər verir. Belə ki, bəyanatda xarici işlər nazirlərinə bütün zəruri məsələləri həll edəcək sülh müqaviləsinin hazırlanması üzərində işləməyin tapşırıldığı bildirilir.Brayza bəyanatda ATƏT-in Minsk qrupunun bir dəfə də olsun xatırlanmadığını, Brüssel görüşünün Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə yeni danışıqlar formatının qurulması üçün zəmin yaratdığını vurğulayıb: "Bəyanatda ATƏT-in Minsk qrupunun xatırlanmaması Aİ-nin ATƏT-in Minsk qrupunun de-fakto "ölümü"ndən sonra yaranmış boşluğu doldurmağa çalışdığından xəbər verir".

### "MİNSK QRUPU 28 İL FƏALİYYƏT GÖSTƏRİB. NƏTİCƏ GÖZ QABAĞINDADIR - SIFIR"

Azərbaycan Prezidentinin fikrincə, münaqişənin həlli üçün ATƏT-in Minsk Qrupuna verilən mandat de-yure qüvvədə qalsa da, de-fakto qüvvədən düşmüş sayıla bilər. İlham Əliyev bildirib ki, Minsk Qrupu 28 il fəaliyyət göstərib və "nəticəsi göz qabağındadır - sıfır".O, həmçinin Avropa İttifaqının Azərbaycan və Ermənistan arasında problemlərin həllindəki rolu, rəsmi Bakının təklif etdiyi beş prinsip, o cümlədən də Zəngəzur dəhlizinin inşası üzrə işlərin başlanmasının zəruriliyi haqda fikrini bildirib. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirəsində deyib.

Azərbaycan Prezidenti ATƏT-in Minsk Qrupunun fəaliyyəti ilə bağlı məsələlərə, Avropa İttifaqının vasitəçilik səylərinə toxunub. Həmçinin o, Zəngəzur dəhlizinin inşasına başlamağın zəruri olduğunu bildirib, Qaqrabağın RF sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi hissəsində təbii qaz təminatının dayandırılması ilə bağlı vəziyyət haqda danışıb. "Minsk Qrupu 28 il fəaillət göstərib. Nəticə göz qabağındadır - sıfır"İlham Əliyevin sözlərinə görə, Minsk Qrupuna mandat verən ATƏT yeni reallıqları tam qəbul edib: "ATƏT-in Minsk "rupuna gəldikdə, müharibədən dərhal sonra Minsk qrupunun həmsədrləri Bakıya gəlmişdilər. Bu, onların Azərbaycana müharibədən sonra birinci və sonuncu səfəri idi.

### "AZƏRBAYCAN BU MÜNAQİŞƏNİ ÖZÜ HƏLL EDİB"

" Biz bu münaqişəni özümüz həll etdik. Minsk Qrupu ikinci Qarabağ müharibəsinə qədər 28 il fəaliyyətdə idi və həmsədr ölkələr bu illər ərzində Azərbaycana, Ermənistana bəlkə də yüzlərlə səfər etmişlər. Nəticə də göz qabağındadır, nəticə sıfır. Azərbaycan bu münaqişəni özü həll edib. Hərbi-siyasi yollarla həll edib. Minsk Qrupuna münaqişənin həlli üçün verilmiş mandat faktiki olaraq de-yure qüvvədə olsa da, de-fakto artıq etibarsız sayıla bilər".

Bu fikirləri Azərbaycan Prezidenti cari ilin birinci rübünün yekunları ilə bağlı keçirilən müşavirədə vurğulayıb. Dövlət başçısı bildirib ki, ötən il ərzində ölkə ATƏT MQ sədrlərindən heç bur təklif almayıb: "Bizim xarici işlər nazirimiz Minsk Qrupunun həmsədrləri ilə müxtəlif beynəlxalq tədbirlərdə görüşmüşdür və biz deyirdik ki, siz bizə deyin görək, nə ilə məşğul olmaq istəyirsiniz? Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan ərazisində Dağlıq Qarabağ inzibati ərazisi yoxdur və olmayacaq. Siz nə ilə məşğul olmaq istəyirsiniz, deyin, biz də bilək və öz fikrimizi bildirək.

Bir ildən çox müddətdə bu məsələ ilə bağlı bizə hər hansı bir təklif verilməmişdir. İndiki şəraitdə isə Minsk qrupu, onun həmsədrlər formatı faktiki olaraq qeyri-funksional vəziyyətdədir. Bunu artıq bu həmsədr ölkələrin yüksəkvəzifəli şəxsləri bildirirlər və belə olan halda, əlbəttə ki, hər hansı bir qrup şəklində fəaliyyətdən söhbət gedə bilməz". Bir sözlə, Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Minsk qrupu 28 il fəaliyyət göstərib. Nəticə göz qabağındadır - sıfır".

**RƏFİQƏ KAMALQIZI**

# Milli Məclisin plenar iclasında 14 məsələ müzakirəyə çıxarılıb

*Dünən Milli Məclisin sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin yaz sessiyasında növbəti plenar iclası keçirilib. Millət vəkilləri gündəliyə münasibət bildirdikdən sonra cari məsələlərin müzakirəsi başlanılıb. Komitə sədri Siyavuş Novruzov, deputatlardan Bəhruz Məhərrəmov, Razi Nurullayev, Musa Qasımlı, Elman Nəsirov, Qüdrət Həsənquliyev, Tural Gəncəliyev, Fazil Mustafa, Könül Nurullayeva, Əli Məsimli gündəmdə olan bəzi mövzular barədə danışıblar.*

Çıxışlarda Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirənin siyasi və iqtisadi əhəmiyyəti, real vəziyyət barədə vətəndaşların birbaşa ölkə başçısı tərəfindən məlumatlandırılmasının önəmli olduğu vurğulanıb. Deputatlar mətbuatda milli dövlət maraqlarının qorunmasının vacibliyi, ölkədə hərbi vətənpərvərlik tərbiyəsinin daha da genişləndirilməsi məsələlərinə toxunublar. İşğaldan azad edilmiş ərazilərdə aşkarlanmış kütləvi insan məzarlıqları ilə bağlı qeyd edilib ki, mülki vətəndaşlara yönəlmiş bu cinayətləri törədənlər məsuliyyətə cəlb olunmalıdır və Ermənistan dövlətinə qarşı beynəlxalq məhkəmələrdə başlanılan işlərdə bu dəlillərdən geniş istifadə olunmalıdır.

Milli Məclisin deputatları seçiciləri düşündürən bir sıra problemləri də diqqətə çatdırıblar, şəhid adının əbədiləşdirilməsi, əlilliyi olan şəxslərin sosial müdafiəsi məsələlərindən bəhs ediblər. Bu ildən başlayaraq təhsil kreditlərinin verilməsini yüksək qiymətləndiriblər. Daha sonra iclasda gündəlikdəki məsələlər müzakirə olunub.

Milli Məclisin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, bu gün 14 məsələ müzakirəyə çıxarılıb. Qeyd edilib ki, gündəliyin birinci məsələsi "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə Milli Məclisin qərar layihəsidir. Qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin sədri bildirib ki, gündəliyin ikinci məsələsi ölkə Prezidenti tərəfindən təqdim edilmiş "Beynəlxalq Telekommunikasiya İttifaqının Radiorabitə Reqlamentinin və Ümumdünya Radiorabitə Konfransının Yekun Aktlarının təsdiq edilməsi haqqında" qanun layihəsidir.

Qanun layihəsi barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Elnur Allahverdiyev məlumat verib. Bildirib ki, hazırda 193 dövlətin üzv olduğu Beynəlxalq Telekommunikasiya İttifaqının Azərbaycan 1992-ci ildən etibarən üzvüdür. 2019-cu il noyabrın 22-də Şarm-əl-Şeyx şəhərində keçirilən Ümumdünya Radiorabitə Konfransında qəbul edilən Yekun Aktlar Azərbaycan Respublikası tərəfindən müvafiq bəyanatlarla imzalanıb. Yekun Aktlarda tezliklərin bölgüsü, tezlik təyinatlarının bildirişi və qeydiyyatı, digər texniki məsələlər öz əksini tapıb. Qeyd edilib ki, Beynəlxalq Telekommunikasiya İttifaqının Radiorabitə Reqlamenti isə özündə Ümumdünya Radiorabitə Konfransının qərarlarını birləşdirir. Təklif olunan reqlamentin əsas məqsədi İttifaqın üzvləri üçün ən son texniki nailiyyətlər əsasında tezliklərdən istifadəni lazımi şəkildə təmin etməkdir.

Səməd Seyidov rəhbərlik etdiyi Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin məsələ ilə bağlı müsbət rəyini bildirdikdən sonra qanun layihəsi bir oxunuşda səsə qoyularaq qəbul edilib. Sonra Milli Məclisin sədri diqqətə çatdırıb ki, gündəliyin növbəti beş məsələsi üçüncü oxunuşda olan qanun layihələridir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili mahiyyətcə bir-birinə yaxın olan iki məsələ - "Lisenziyalar və icazələr haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) və "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələrinə dair məlumat verib. Bildirib ki, Prezident tərəfindən bir məktubda daxil olan hər iki sənəd "Media haqqında" Qanuna əsasən hazırlanıb və lisenziya tələb olunan teleradio yayımı fəaliyyəti subyektlərinin həmin qanunla müəyyən edilmiş audiovizual media fəaliyyəti subyektlərinin təsnifatına uyğunlaşdırılması məqsədi daşıyır. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. Bildirib ki, Məcəlləyə təklif edilən dəyişiklik dəqiqləşdirmə məqsədi daşıyır və həm məhkəmə icraatı, həm də ibtidai istintaq zamanı məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında məhkəmələrdə aparılan icraatın "Elektron məhkəmə" informasiya sistemi vasitəsi ilə aparılmasını müəyyənləşdirir. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.



Daha sonra komitə sədri Tahir Mirkişili "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə layihəni üçüncü oxunuşda təqdim edib. Bildirib ki, qanunun 11.2-ci maddəsinə əsasən, həmin maddədə nəzərdə tutulan məqsədlər üçün özəlləşdirməni həyata keçirən dövlət orqanının hesabına özəlləşdirmədən əldə edilən vəsaitdən ayırmalar edilir. Təklif olunan dəyişiklikdə bu vəsaitlərin istifadə məqsədləri daha da genişləndirilir və buraya özəlləşdirmədən sonra müəssisələrin fəaliyyətinin dəstəklənməsi tədbirlərinin maliyyələşdirilməsi, dövlət əmlakının qorunub saxlanması və mühafizəsi, dövlət əmlakının satıcısının maddi-texniki bazasının möhkəmləndirilməsi məsələləri də daxil edilir. Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Daha sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Anar Məmmədov "Antiinhisar fəaliyyəti haqqında", "Yeyinti məhsulları haqqında" və "Dövlət sirri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verib. Bildirib ki, Azərbaycan Prezidentinin müvafiq fərmanları ilə Dövlət Ehtiyatları Agentliyi yaradılıb və Agentliyin nizamnaməsi təsdiq edilib. Adı çəkilən qanunlara təklif olunan dəyişikliklər həmin fərmanlara uyğun olaraq hazırlanıb və dəqiqləşdirmə xarakteri daşıyır.

Sənədlə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin və Aqrar siyasət komitəsinin müsbət rəyləri bildirildikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini diqqətə çatdırıb. Bildirib ki, Prezidentin "Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında" 2021-ci il 7 oktyabr tarixli Fərmanı ilə pay torpaqları üzərində mülkiyyət hüquqlarının rəsmiləşdirilməsi işlərinin başa çatdırılması, torpaq mülkiyyətçilərinin əkin subsidiyalarından yararlanması məqsədilə ləğv edilmiş sovxoz və kolxozların özəlləşdirilən torpaqlarından pay almış, lakin bu torpaqlar üzərində mülkiyyət hüququ rəsmiləşdirilməmiş şəxslərin hüquqlarının dövlət büdcəsinin vəsaiti hesabına daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması və onlara dövlət reyestrindən çıxarışların, torpaq sahələrinin plan və ölçülərinin verilməsi təsbit edilib. Bununla yanaşı, "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə 5 noyabr 2021-ci il tarixli Qanunla torpaq payı almış şəxslərin mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın və texniki sənədlərin verilməsinə görə dövlət rüsumundan azad olma nəzərdə tutulub. Təqdim olunan qanun layihəsi "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənədə uyğun olaraq hazırlanıb. Qanun layihəsi bir oxunuşda səsə qoyularaq qəbul edilib. Sonra Milli Məclisin sədri deputatların nəzərinə çatdırıb ki, növbəti altı məsələ ikinci oxunuşda olan qanun layihələridir.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov mahiyyətcə bir-birinə yaxın olan növbəti iki məsələ - "Narkoloji xidmət və nəzarət haqqında" qanunda dəyişiklik edilməsi barədə, habelə "Hərbi qulluqçuların statusu haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə qanun layihələri haqqında ikinci oxunuşda məlumat verib.

Qanun layihələrinin aidiyyəti üzrə baxıldığı Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov sənədlərlə bağlı müsbət rəyləri səsləndiriblər. Müzakirələr zamanı komitə sədri Siyavuş Novruzov, deputatlar Fazil Mustafa, Naqif Həmzəyev qeyd və təkliflərini bildiriblər. Komitə sədri Əhliman Əmiraslanov bəzi məqamlara aydınlıq gətirib. Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Daha sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) ilə bağlı bildirib ki, Məcəllədə satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələrin və ya psixotrop maddələri xeyli, külli və xüsusilə külli miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşımanı nəzərdə tutan hüquqi normalar müəyyən edilir. Belə əməllər külli və xüsusilə külli miqdarda törədildikdə, onlara görə daha ağır sanksiya nəzərdə tutulur. Eyni zamanda, satış məqsədilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri, onların prekursorlarını əldə etmə, saxlama, hazırlama, habelə Məcəllənin 235-ci, 237-ci və 240-cı maddələrində də nəzərdə tutulan əməllər xüsusilə külli miqdarda törədildikdə, onlara görə daha ağır sanksiyanı nəzərdə tutan yeni maddələrin əlavə edilməsi təklif edilir.

Nizami Səfərov, habelə İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini də (ikinci oxunuş) təqdim edib. Bildirib ki, layihə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi məqsədilə "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinə uyğunlaşdırılma məqsədilə hazırlanıb və bu sahədə cinayət məsuliyyətinə deyil, inzibati məsuliyyətə səbəb olan halları nəzərdə tutur.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov hər iki layihəyə komitədə baxıldığını və dəstəklədiyini bildirib. Deputatlar Razi Nurullayev və Sabir Rüstəmxanlı qeyd və təkliflərini səsləndirdikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Bildirib ki, layihədə narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi isiqamətlərindən biri kimi cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin miqdarı qanunla həmin maddələr üçün müəyyən edilmiş xüsusilə külli miqdarın aşağı həddindən artıq olduqda, onların məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi təklif edilir. Bununla bağlı Məcəllənin bir sıra maddələrinə müvafiq dəyişikliklər və əlavələr nəzərdə tutulub. Səhiyyə komitəsinin rəyi nəzərə alınmaqla qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Cinayət Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edərək bildirib ki, Məcəllənin 208-ci maddəsində "Təşkilat rəhbərləri tərəfindən xarici" sözləri "Xarici" sözü ilə əvəz edilir. Beləliklə, xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi nəticəsində əldə edilmiş və məcburi qaydada ölkəyə geri qaytarılmalı olan 20 min manatdan artıq məbləğdə xarici valyuta vəsaitini qaytarmama əməlinə görə cinayət məsuliyyətinə cəlb edilməli olan subyektlərin dairəsi ilə bağlı məhdudiyyət aradan qaldırılır. Artıq həm fiziki şəxslər, həm hüquqi şəxslər bu növ cinayət əməlinə görə məsuliyyətə cəlb ediləcəklər.

Sənədlə bağlı deputatlar Vüqar Bayramov və Əziz Ələkbərov öz fikirlərini açıqlayıblar. Deputat Nurlan Həsənov çıxışlarda səsləndirilən sualları cavablandırdıqdan sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib. Bununla Milli Məclisin bugünkü iclası başa çatıb.

# Ermənistanın Minsk qrupuna hesablanmış xam xəyalları batıb...

## *Daha heç bir bəhanə də qalmayıb*




***Minsk qrupunun tarixin arxivinə köç etməsinin ardınca son vaxtlara qədər bu qurmdan imdad alacağını sanan erməni tərəfinin daha bir yalanı üzə çıxıb. Məlum olub ki, İrəvana səfər etmiş ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Bris Rokfeyl sən demə regiona tamam başqa statusla gəlib. Yəni Ermənistan rəsmiləri və KİV-i onu "MQ həmsədri" kimi təqdim etsələr də, Azərbaycan mediasına məlum olub ki, Rokfeyl İrəvana heç də "MQ həmsədri" kimi deyil, Fransa XİN-nin Şərq Tərəfdaşlığı proqramı üzrə nümayəndəsi qismində, yaxud statusunda səfər edib. Nəticədə erməni siyasi-ictimai rəyinin yalanı ayaq tutmamış ifşaya məruz qalıb.***

### Fransa- Rusiya- ABŞ Minsk qrupuna "əlvida" deyiblər

Lakin erməni tərəfini Minsk qrupunun sıradan çıxması ilə bağlı pəjmürdə edən daha bir reallıq müttəfiqləri Rusiyanın qrupdakı həmsədrinin vəzifəsinin dəyişdirilməsi olub. Belə ki, Rusiyanın xüsusi tapşırıqlar üzrə səfiri İqor Xovayevin Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasının təşviqi üzrə xüsusi nümayəndəsi vəzifəsinə təyin edilməsi sözügedən məsələnin hansı yerdə olduğunu bütün çılpaqlığı ilə əks etdirməkdədir. Xatırlasaq ki, Rusiyanın XİN rəhbəri Sergey Lavrov da Minsk qrupunun fəaliyyətinə son qoyulduğunu açıq tərzdə bəyan edib və onun sözlərini XİN-nin mətbuat katibi Mariya Zaxarova da təsdiqləyib. Yəni bu faktın özü də Kremlin Minsk qrupu formatından uzaqlaşaraq xüsusi nümayəndəlik institutuna üstünlük verdiyini göstərir. Xüsusi nümayəndəlik institutu isə artıq bəlli olduğu kimi, sırf Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması məsələsi ilə vasitəçilik etmək niyyətindədir və ondan da o tərəfə keçmir.

### Ermənistanın hakimiyyət isteblişmenti susduruldu...

Əlbəttə ki, reallıqların belə bir tərzdə dəyişməsi son vaxtlara qədər nala-mıxa döyəcləyərək danışıqlar prosesində Minsk qrupunun mütləq iştirakı ətrafında səs-küy qaldıran Ermənistanın hakimiyyət isteblişmentini demək olar ki, tamamilə susdurdu. Üstəlik, yuxarıda qeyd edilən cəhdlərinin də iflasa uğraması İrəvanın qarşısında bir təlbi qabardır - qısa vaxtda, sürətlə Qarabağ məsələsinə son qoymaq və sərhədləri delimitasiya etməklə qarşı tərəfin, yəni Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tanımaq!

***Rövşən RƏSULOV***

P.S.İndi top heç də Minsk qrupunda deyil, çünki futbol leksikonu ilə desək, bu format ofsaytda qalıb, geri dönməsi isə mümkün deyil. ABŞ və Fransanın da Minsk qrupu çərçivəsində Rusiya ilə rabitələrini kəsmələri həmin reallığı ehtiva etməkdədir.

Və ən əsası - Azərbaycanın Prezidenti İlham Əliyevin Minsk qrupuna verilmiş mandatın de-fakto etibarsız olduğu barədə verdiyi bəyanatı İrəvandakı siyasi orientalistlərin kefinə əməlli-başlı soğan doğrayıb...

# "Ermənistan sülh sazişi imzalamaq məcburiyyətində olduğunu anlayır"



"Azərbaycan Prezidenti cənab İlham Əliyev 12 aprel müşavirəsində bildirdi ki, Azərbaycan Ermənistana sülh sazişini imzalaq üçün hər zaman təkliflər irəli sürüb, 5 maddədən ibarət təklif Ermənistan tərəfindən qəbul olunmaqdadır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu bildirib.

Onun sözlərinə görə, ötən il dekabr ayının 15-də Brüsseldə Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti cənab İlham Əliyevlə Ermənistanın baş naziri arasında baş tutmuş görüş zamanı da Ermənistan tərəfi sülh sazişini imzalamağa meyilli olduğunu bildirib: "Bunu cənab Prezident İlham Əliyev də vurğulayıb.

Həqiqətən də son dövrlərə diqqət yetirsək görərik ki, Ermənistan Azərbaycanla sülh sazişi imzalamaq məcburiyyətində olduğunu anlayır. 44 günlük Vətən müharibəsindən dərhal sonra cənab İlham Əliyev dəfələrlə Ermənistanın manevr imkanlarının olmadığını vurğulamışdır. Ermənistan sülh sazişini imzalamaqdan nə qədər yayınmağa çalışsa da hər hansı bir nəticəyə nail ola bilməyəcək. Avropadan dəstək almağa çalışdı. ATƏT-in Minsk qrupunu bölgəyə gətirməyə çalışırdı. Amma bunu da edə bilmədi. Bütün ümidləri tükənən Ermənistan Azərbaycanla sülh sazişinin imzalanmasının vacibliyindən danışmağa başladı.

Ermənistanın baş naziri Nikol Paşinyan parlamentin son iclasında vurğuladı ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır. O qeyd etdi ki, bütün dünya ölkələri Ermənistana xəbərdarlıq edir, Azərbaycanın ərazi bütövlüyünü tanımamaqla Ermənistan özü üçün təhlükə yaradır. Göründüyü kimi artıq Ermənistan Azərbaycanın ədalətli şərtlərini qəbul edərək yekun sülh sazişini imzalamağa tam meyilli görünür. İlham Əliyev də Ermənistana öz növbəti xəbərdarlığını çatdırmış oldu. Həqiqətən də bu Ermənistan üçün bir şansdır. Demək olar ki, bu sonuncu şansdır. Paşinyanın özü də bunu dərk edir. Ermənistan əgər sülh sazişi imzalamaqdan yayınarsa Azərbaycan əlavə təhlükəsizlik tədbirləri görməyə məcbur qalacaq.

Təbii ki, bu da Ermənistan üçün çox ağır nəticələr yaradacaqdır. Ölkə Prezidenti müşavirədə qeyd etdi ki, Ermənistana yardım edən ölkələr öz konstruktiv mövqelərini ortaya qoyacaq. Yeni Ermənistana silah verməklə Cənubi Qafqazda təhlükəsizliyə qarşı ciddi təhdidlər yaradacaqlar. Düşünürəm ki, yekun sülh sazişinin imzalanması üçün yeni reallıqlar mövcuddur. Bir sözlə, Azərbaycan düşməni sülhə məcbur etmə strategiyasını uğurla davam etdirir".

***Abutel İlhamqızı***



# MEDİA-nın İcraçı direktoru BDU-nun Jurnalistika fakültəsinin tələbələri ilə görüşüb



***15 aprel tarixində Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun "Media sahəsində islahatların hüquqi əsasları" mövzusunda ustad dərsi keçirilib. SİA xəbər verir ki, tədbirdə Medianın İnkişafı Agentliyinin əməkdaşları, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, professor-müəllim heyəti, tələbə və magistrantlar iştirak ediblər.***

Əhməd İsmayılov bildirib ki, özünəməxsus inkişaf yolu keçmiş Azərbaycan mediası ölkəmizdə və dünyada baş verən hadisələrlə bağlı ictimaiyyətin məlumatlandırılması, xalqımızın haqq səsinin dünyaya çatdırılması istiqamətində səmərəli fəaliyyət göstərib. O, media sahəsində islahatların hüquqi əsasları, medianın fəaliyyəti, media etikası, peşəkarlıq standartları ilə bağlı tələbə-jurnalistləri məlumatlandırıb. Xüsusilə medianın cəmiyyətdəki rolu, media subyektləri arasındakı münasibətlərin hüquqi baxımdan tənzimlənməsi və funksiyaları ilə bağlı əsas məqamları diqqətə çatdırıb.

Sonra Əhməd İsmayılov "Media haqqında" Azərbaycan Respublikasının Qanununun əsas müddəalarını şərh edərək, jurnalistlər üçün əhəmiyyətini vurğulayıb. Medianın bugünki problemləri, cəmiyyət və media arasında əlaqələr barədə tələbələrlə fikir mübadiləsi aparılıb. İnteraktiv formada keçirilən ustad dərsində tələbələri maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

# DİQQƏT: COVID pasportu ləğv edilir?




"Koronavirus pandemiyası ilə bağlı məhdudiyyətlər mərhələli şəkildə aradan qaldırılır". SİA xəbər verir ki, bu sözləri TƏBİB-in İdarə Heyətinin sədri vəzifəsini icra edən Vüqar Qurbanov jurnalistlərə açıqlamasında bildirib. Onun sözlərinə görə, ölkədə COVID-19 infeksiyasının yayılması tezliyi əsasında müəyyənləşir: "Bir çox məhdudiyyətlərin aradan qaldırılması müvafiq qurumlar tərəfindən Nazirlər Kabinetinə verilən təkliflər əsasında dəyərləndirilir. Ümid edirik ki, yaxın vaxtlarda verilən təkliflərlə bağlı da qərarlar qəbul ediləcək və digər məhdudiyyətlər də aradan qaldırılacaq".

***Banuçiçək Hüseynli***

# "Hesabat Azərbaycanın əlini gücləndirə bilər"




***"ABŞ Dövlət Departamentinin rəsmi saytında 2021-ci il dünya ölkələrində insan hüquqlarının vəziyyətinə dair illik hesabatın Ermənistan hissəsində 2020-ci ildə etnik erməni qüvvələrinin bəzi azərbaycanlı əsirləri qanunsuz şəkildə qətlə yetirdiklərinə və işgəncəyə, ləyaqəti alçaldan rəftara məruz qoyduqlarına dair məlumatların yer alması rəsmi Vaşinqtonun, ABŞ Dövlət Departamentinin Azərbaycana münasibətinin müsbətə doğru dəyişdiyini göstərir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Züriyyə Qarayeva bildirib.***



Onun sözlərinə görə, məhz Rusiya-Ukrayna müharibəsinin baş verdiyi vaxtda bu cür kəskin münasibət dəyişikliyini mən Qərbin Rusiyanın asılılığında olan ölkələrə qarşı münasibətinin dəyişməsi kimi başa düşürəm: "Ermənistanın Rusiyanın orbitində olan, şərtlərini diktə edən ölkə kimi qarşı qütbü qıcıqlandırmağı bacarıb. Bu baxımdan, ABŞ Dövlət Departamenti Ermənistanın azərbaycanlı əsirlərə verdiyi işgəncələri, yaxud mülki əhaliyə qarşı törətdiyi cinayətləri öz hesabatına daxil etməsi həmin münasibəti sərgilədiyinin göstəricisidir. Çünki, ABŞ Azərbaycana qarşı 907-ci düzəliş tətbiq edən, çox zaman ikili standartlar mövqeyindən yanaşan dövlət olaraq birdən-birə mövqe dəyişikliyi əlbəttə ki suallar yaradır. İstənilən halda bu cür hesabatın ABŞ Dövlət Departamentinin rəsmi saytında yayımlanması Azərbaycanın beynəlxalq məhkəmədə əlini gücləndirə bilər".

***Səbinə Hüseynli***

# Xalqın tarixi yolunun yaddaşı

## *18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür*

***Aprelin 18-i dünyada Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur. Bu əlamətdar gün Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (İCOMOS) təklifi üzrə UNESCO tərəfindən 1983-cü ildə təsis olunub. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir. Ölkəmizdə yaşı əsrləri və minillikləri əhatə edən tarixi abidələrin mövcudluğu fikrimizi tamamlayır.***



Azıx mağarasından tapılmış qədim insanın çənə sümüyü, Qobustanda aşkar edilmiş yaşayış məskənləri Azərbaycanda ən qədim dövrlərdən insanların məskunlaşdığını təsdiqləyir. Tarixin müxtəlif dövrlərində ölkəmizin ərazisində dövlətlərin yaranması ilə qədim şəhərlər salınıb, müdafiə tikililəri, əzəmətli qala divarları inşa olunub. Orta əsrlərə aid abidələr Qız Qalası, Möminə Xatun, Qarabağlar, Gülüstan, Allah-Allah türbələri, Şirvanşahlar sarayı, Şəki xan sarayı, Şuşa şəhərinin abidələri və s. nəinki Şərq, hətta dünya memarlığının ən gözəl incilərindəndir. Abidələrin və tarixi yerlərin dağıdılması xalqın, millətin varlığının məhvi deməkdir. Hazırda dünyada baş verən siyasi proseslər nəticəsində minlərlə abidə məhv olmaq təhlükəsindədir. Bu baxımdan Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününün təsis olunması böyük əhəmiyyətə malikdir. Abidələr və tarixi yerlərin məhv olmaq təhlükəsi ölkəmizdən də yan ötməyib.

Son illər ölkəmizdə tarixi abidələrin bərpası və qorunması istiqamətində bir sıra layihələr icra olunub. Ölkə başçısının böyük diqqət və qayğısı sayəsində ölkəmizdə tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir. Xalqımızın yaratdığı mədəni irs nümunələrinin dünyada tanıdılması istiqamətində də uğurlara imza atılıb. İçərişəhər memarlıq kompleksi, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Qobustandakı muzey isə 2013-cü ildə Avropanın ən yaxşı muzeyləri sırasında olub.

30 ilə yaxın işğal altında olan ərazilərimizdə və Qərbi Azərbaycanda vəhşi işğalçılar abidələrimizə, bizim tariximizlə, mədəniyyətimizə divan tutublar. Bu abidləri yer üzündən silməklə, keçmişimizi, yaddaşımızı silməyə çalışıblar. Tarixi mənbələrdə qeyd olunduğu kimi, Azərbaycan torpaqları 1828-ci ildə "Türkmənçay" müqaviləsi ilə Rusiya və İran arasında bölüşdürüldükdən sonra çar Rusiyası mərhələli şəkildə ermənilərin bu ərazilərdə məskunlaşmasına imkan yaratdı. Özlərinə yer eyləyən ermənilər illər uzunu öz murdar niyyətlərini həyata keçirməyə başladılar. Onlar Azərbaycan torpaqlarını işğal etməklə, tarixi-mədəni irsimizi, adət-ənənələrimizi, musiqimizi və incəsənətimizi özününküləşdirməyə cəhd edir, qədim tarixə malik olduqlarını bu yolla sübut etməyə çalışıblar. Məkrli niyyətlərinə nail ola bilmədikdə isə tarixi-mədəniyyət abidələrini, məscidləri, qəbiristanlıqları vəhşicəsinə dağıdıb, yer üzündən siliblər. Qərbi Azərbaycan indiki Ermənistan torpaqlarında 1913-1918-ci illərdə İrəvan şəhərində Sərdar sarayı kompleksi, çoxsaylı karvansaralar, hamamlar, türbələr dağıdılmışdır. Şah İsmayıl Xətainin öz vəziri Rəvanqulu xana tikdirdiyi İrəvan qalası, o cümlədən 1870-dən çox Azərbaycan-türk mənşəli tarix və mədəniyyət abidələri, bir o qədər də qədim və orta əsrlərə aid qəbiristanlıq, heykəllər, incəsənət nümunələri tamamilə məhv edilib. O illərdə İrəvan qəzasında 42, Eçmiədzin qəzasında 33, Zəngəzur qəzasında 35 məscid talan edilərək yandırılmışdır.

30 il müddətində işğal altında saxladıqları bütün tarixi, dini abidələrimizi məhv ediblər. Cəbrayılda 132 tarixi abidə, Ağdam, Zəngilan, Qubadlı, Kəlbəcər və Füzuli rayonlarında yüzlərlə tarixi, memarlıq və mədəniyyət abidələri, on minlərlə eksponatı olan muzeylər düşmən əlinə keçərək viran edilmişdir. Şuşada XVIII əsrə aid Gövhər Ağa məscidi, Hacı Abbas məscidi və karvansaray, Hacı Yusifli məscidi, Cəbrayılda V və VII əsrlərə aid səkkizguşəli türbə, XVIII əsrə aid Sultanməcid hamamı, Zəngilanda XII əsrə aid Qız qalası, XIV əsrə aid səkkizguşəli türbə, Laçında XIV əsrə aid Məlikəjdər Türbəsi, Ağdamda dünyada ikinci olan Çörək Muzeyi, eramızdan əvvəl V əsrə aid Çalaqtəpə yaşayış məskəni, Qubadlıda IV əsrə aid Gavur dərəsi, V əsrə aid Qalalı və Keyqala abidələri, Kəlbəcərdə XIII-XVIII əsrlərə aid Xotavənd məbədi, Füzulidə 1682-ci ildə tikilmiş Qiyasəddin məscidi, 1684-cü ildə tikilmiş Qarğabazar karvansarayı və digər tarixi memarlıq abidələrimiz erməni vandalizminə məruz qalmışdır.

Bütün bu əməllərlə Ermənistan "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasını, "Arxeoloji abidələrin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasını, "Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" 1970-ci il Paris Konvensiyasını, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il Paris Konvensiyasını, "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasını və s. kobudcasına pozub.

Əlbəttə ki, tarixi abidələrimiz sırasında dini-mədəniyyət abidələrimiz də müstəsna yer tutur. Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir. Dünyanın ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidi yenidən qurulub. Xristian dini abidələri, alban kilsələri, cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi təmir edilib. Tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, həmçinin dini ziyarətgahların, maddi-mədəniyyət abidələrin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır.

Tarixi-dini abidələrin qorunması, təmir və bərpasına Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da öz töhfəsini verir. İstər ölkəmizdə, istərsə də xaricdə dini abidələrin bərpası üzrə layihələr reallaşdırır. Bunlardan biri də Şamaxı şəhərinin girəcəyində, Bakı-Şamaxı-Yevlax avtomobil yolunun kənarında yerləşən Pirsaat Baba ziyarətgahıdır. Şamaxı rayonunda Pirsaat çayının sahilində yerləşən Pirsaat Baba ziyarətgahı əhalinin ən çox ziyarət etdiyi müqəddəs ocaqlardan biridir və 2019-cu ildə Şamaxıda baş verən zəlzələ zamanı ziyarətgahın divarlarında çatlar əmələ gəlmişdi. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2020-ci ildə burada bərpa-yenidənqurma işlərinə və yeni məscid binasının inşasına başlanılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Azərbaycanda dövlət-din münasibətlərinin necə qurulduğuna nəzər salarkən, vurğulayıb ki, Azərbaycanda dövlət dini məsələlərə qarışmır, əksinə, çalışır ki, kömək göstərsin: "Azərbaycanda din dövlətdən ayrıdır. Ancaq dövlət dindarlara daim dəstək və dayaq olur. Bizim bütün tarixi məscidlərimiz dövlət tərəfindən əsaslı şəkildə bərpa edilibdir". Ölkəmizdə həm məscidlərimiz, həm də qeyri-xalqların dini abidələri qorunur və abadlaşır. Azərbaycan Prezidenti çıxışlarının birində vurğulayıb ki, bütün başqa dinlərin məbədləri bizim üçün əzizdir və bizim sərvətimizdir: "Azərbaycanda bütün dinlərin tarixi-dini abidələri qorunur, bərpa edilir, tikilir". Abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzi, Katolik məbədi Azərbaycanda mövcud olan münasibətin təzahürüdür. Azərbaycan işğaldan azad etdiyi ərazilərdə də dini abidələrin təmir və bərpasına başlayıb. Ərazilərdə abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, bəziləri isə erməniləşdirilib. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlayan ermənilərin vandallığı bütün dünyaya göstərildi.

Erməni barbarlığının nəticəsi olaraq dağıdılan abidələrimiz qısa bir zamanda bərpa olunacaqdır. Təbii ki, tarixi abidələr daş yaddaşımıza çevrilib və hər bir xalqın kimliyini, keçdiyi tarixi yolu xatırladır. Bu abidələrin qorunması hər birimizin borcudur.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan bəstəkarlıq məktəbinin böyük nümayəndəsi

## Dövlət başçısının Sərəncamı ilə Rauf Hacıyevin 100 illik yubileyi qeyd ediləcək

***Sənət yaranan əsərlərin fövqündə uca və əzəmətli görünür. Xalqın mədəni irsinə çevrilən sənət əsərləri bir amala xidmət göstərir: xalqa və onun mədəniyyətinə, incəsənətinə. Azərbaycan sənət tarixində bu amalla çalışan kifayət qədər yaradıcı simalar olmuş, bu gün də var. Belə simalara dövlətimiz tərəfindən hər zaman diqqət ayrılmış və onların yaradıcılıq nümunələrinin dünyada tanıdılması, tədqiqi və təbliği, eləcə də gənc nəslə aşılanması istiqamətində ardıcıl tədbirlər görülmüşdür.***



Azərbaycan bəstəkarlıq məktəbindən qidalanıb, çoxşaxəli yaradıcılıq üslubunu təqdim edən sənətkarlar sırasında yeri, rolu, mövqeyi olan xalq artisti Rauf Hacıyevin yaradıcılıq dünyasına hər zaman diqqət ayrılmış, həssaslıqla yanaşılmışdır. Bu il - 2022-ci ilin may ayında görkəmli bəstəkarın 100 illiyi tamam olur. "Rauf Hacıyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamı sənət xadimlərinə ayrılan diqqətin daha bir təzahürüdür. Sərəncama əsasən, görkəmli bəstəkarın Azərbaycanda musiqi mədəniyyətinin inkişafında tədqirəlayiq xidmətləri nəzərə alınaraq Mədəniyyət Nazirliyi tərəfindən 100 illik yubileylə bağlı tədbirlər planı hazırlanıb həyata keçiriləcəkdir.

Bəstəkar Rauf Hacıyev musiqi sahəsində çoxşaxəli fəaliyyət göstərərək ölkəmizdə operetta və balet janrlarının inkişafında mühüm rol oynayıb, mahnılar müəllifi kimi geniş şöhrət qazanıb. Onun tərcümeyi-halına nəzər salsaq görərik ki, bəstəkar 1922-ci ilin mayın 15-də dünyaya göz açıb. O, Azərbaycan professional musiqisinə müxtəlif mövzulu operettaları, "Gənclik" simfoniyası, skripka ilə simfonik orkestr üçün konserti, bir-birindən gözəl çoxlu estrada mahnıları ilə daxil olmuşdur. Bəstəkarın musiqi istedadı erkən yaşlarından özünü büruzə verib. Həsən bəy Zərdabinin qızı əməkdar müəllim Qəribsoltan Məlikovanın himayəsi altında tərbiyə almış R.Hacıyevin bəstəkarlıq sahəsində formalaşmasında Üzeyir Hacıbəyli mühüm rolu olub. Belə ki, Raufun fortepiano üçün pyeslərini "Tarantella", "Dağıstan" və "Ləzgihəngi"ni dinlədikdən sonra dahi bəstəkar onun fitri istedadını yüksək qiymətləndirmiş və onunla il yarım məşğul olandan sonra o, "Samur", "Mingəçevir", "Gənclik marşı" kimi əsərlərini bəstələmişdir.

### MİLLİ MOTİVLƏRLƏ MÜASİR ÜSLUBUN VƏHDƏTİNDƏ YARANAN VƏTƏNPƏRVƏR RUHLU MAHNILAR

İlk gənclik məhsulu olan bu mahnılardan sonra mahnı janrı R.Hacıyevin yaradıcılığında aparıcı əhəmiyyət kəsb etmiş, bəstəkarın həm ifaçılar, həm də musiqisevərlər arasında bir çox mahnıları daha çox populyarlıq qazanmışdır. Bu silsilədən olan mahnıları "Sevgilim", "Mənim Azərbaycanım", "Lirik mahnı", "Bahar gəlir", "Sevimli şəhər", "Bakı haqqında mahnı", "Leyla", "Neft daşlarında", "Ceyran" ona daha böyük şöhrət gətirmişdir. Sadaladığımız həmin mahnılar bu günümüzdə də müxtəlif nəsillərdən olan ifaçıların repertuarını zənginləşdirir. Klassikliyini qoruyub saxlayan mahnılar bəstəkarı daha da populyarlaşdırmışdır. Rauf Hacıyevin milli motivlərlə müasir üslubun vəhdətində yaratdığı vətənpərvər ruhlu lirik mahnılar məşhur ifaçıların repertuarına daxil olmuş və Azərbaycan mahnı janrının inkişafında əhəmiyyətli rol oynamışdır.

Onun sənətinin yüksək bədii keyfiyyətləri həmçinin kinofilmlər və teatr tamaşaları üçün bəstələdiyi musiqi lövhələrində aydın təzahürünü tapmışdır. R.Hacıyevin yaradıcılığında teatr tamaşalarına və filmlərə yazdığı musiqiyə də yer verilmişdir. Bəstəkar on beşə qədər filmə musiqi yazmışdır. Onlardan bir neçəsini xatırladaq: "Əhməd haradadır", "Mən rəqs edəcəyəm", "Bir qalanın sirri", "Kölgələr sürünür", "Qara daşlar" və s. Bu filmlərdə musiqi obrazların dolğun təcəssümü, səmimiyyəti, gözəl melodikliyi, şəffaf orkestrləşdirməsi ilə fərqlənir.

### MƏŞHUR OPERETTALARIN MÜƏLLİFİ

Görkəmli bəstəkar 7 operettanın müəllifidir. Tədqirəlayiq haldır ki, onlardan beşi məhz Moskva Dövlət operetta teatrının səhnəsində tamaşaya qoyulmuşdur. Eyni zamanda, bu operettalar keçmiş SSRİ-nin mərkəz şəhərlərində uğurla öz səhnə təcəssümünü tapmışdır. Rauf Hacıyevin istedadı daha çox operetta janrında parlayıb. Bəstəkarın operettaları respublikamızda bu janrın yeni səhifəsini açıb - desək, düz olar. Onun operettalarında vokal-simfonik, balet və estrada sənəti bir-birilə üzvi surətdə birləşir. Onun operettalarının mövzularını isə ən çox adamlarımızın gündəlik həyatı təşkil edir.

R.Hacıyevin Moskvada tamaşaya qoyulmuş ilk operettası "Romeo mənim qonşumdur" əsərindir. Həmin əsər əvvəl Bakıda "Qonşular" adı ilə getmişdir. Əsər Moskvanın operetta teatrında müvəffəqiyyətlə göstərildikdə tamaşanın quruluşçu rejissoru A.Zaks operetta haqqında belə demişdir ki, bu Azərbaycan operettasını teatrımızın repertuarına salmağa bizi sövq edən onun mövzusunun yeniliyi və müasirliyi, R. Hacıyevin coşqun musiqi dili, sırf milli koloriti, əsl mənada müasir musiqi dilidir.

O da diqqətəlayiqdir ki, "Romeo mənim qonşumdur" operettası keçmiş SSRİ respublikaları bəstəkarlarının əsərlərinə baxışda üçüncü mükafata layiq görülmüşdür. Qeyd edək ki, "Romeo mənim qonşumdur" operettası 23 teatr səhnəsində tamaşaya qoyulmuşdur. Operettanı "Azərbaycanfilm" studiyası 1963-cü ildə rejissor Şamil Mahmudbəyovun quruluşunda ekranlaşdırmışdır.

R.Hacıyevin maraqlı operettalarından biri "Mənim məhəbbətim - Kuba"dır. Rauf Hacıyevin rəğbətlə qarşılanan səhnə əsərlərindən "Dördüncü fəqərə", "Qafqaz əsiri", "Ana, mən evlənirəm", "Yolayrıcında" operettalarıdır. Qeyd edək ki, "Dördüncü fəqərə" Finlandiyanın satirik yazıçısı Marti Larninin eyniadlı romanı əsasında yazılmışdır. Əsər əvvəlki operettalardan fərqli olaraq məişət komediyası səciyyəsindədir. Bəstəkar kəskin siyasi - ictimai qayəli operetta yaratmağa nail olmuşdur.

Tədqirəlayiq haldır ki, "Qafqaz əsiri" operettasının Moskva operetta teatrında tamaşa təcəssümündə iştirak edən yaradıcı heyət əsasən, azərbaycanlılardan ibarət idi. Rejissor - Fikrət Sultanov, rəssam - Adil Quliyev, baletmeysterlər - Rəfiqə Axundova və Maqsud Məmmədov, dirijor - Elmar Abusəlimov. 70-ci illərin sonunda R.Hacıyevin daha bir yeni operettası "Ana mən evlənirəm" Moskva operetta teatrında tamaşaya qoyulur. Əsər tez bir zamanda özünə geniş rəğbət qazanır. Operetta janrının başlıca xüsusiyyətlərini dərindən bilən R.Hacıyev "Yolayrıcında" əsərini də yüksək zövqlə yazmışdır. Bu operettanın musiqisi demək olar ki, Qafqaz xalqlarının milli musiqi folkloruna əsaslanır.

R.Hacıyevin axırıncı operettası Üzeyir Hacıbəylinin anadan olmasının 100 illiyinə həsr olunmuş "Ordan-burdan" əsəridir. Xüsusi olaraq Azərbaycan televiziyası və radio verilişləri şirkətinin sifarişi ilə yazılmış və televiziya tamaşası üçün nəzərdə tutulmuş həmin operetta müəllifin musiqili səhnə formalarını mavi ekrana keçirmək işində maraqlı təcrübə oldu.

Operetta janrında çalışmaqla yanaşı, R.Hacıyev musiqili teatrın başqa janrlarında da öz qələmini sınamışdır. 60-cı illərdə o, opera və baletlə də maraqlanırdı. Belə ki, 60-cı illərin sonunda balet janrında daha intensiv çalışmağa başlayır. Bunun nəticəsində R.Hacıyev əvvəl iki xoreoqrafik miniatür - "Ləzgihəngi" və "Yallı"nı bəstələyir. Hər iki əsər ayrı-ayrılıqda parlaq səciyyəli kompozisiya-lövhələrdir. Xalq rəqs ənənələri əsasında qurulmuş bu əsərlərdə müəllif istər melodik, istərsə də ritmik məziyyətləri qabarıqlıqla acıb göstərə bilmişdir.

### MÜBARİZ RUHDAN YARANAN MUSİQİ ƏSƏRLƏRİ

1971-ci ildə R.Hacıyev xaricə işləməyə gedir. O, Mədəniyyət Nazirliyinin göndərişi ilə Əlcəzair Respublikasında mədəniyyət qrupuna rəhbərlik edir. Bu qrupun əsas məqsədi Əlcəzairdə musiqi təhsilinə, milli musiqiçi kadrlarının hazırlanmasına kömək göstərmək idi. Bununla əlaqədar R.Hacıyev və onun həmkarları istər Əlcəzair Milli Konservatoriyasında, istərsə də Buduau şəhərində yeni açılmış musiqi məktəbində müəllim kimi çalışırlar.

Əlcəzairdə işlərkən R.Hacıyev eyni zamanda, bu ölkənin mədəniyyət tarixini də dərindən öyrənir, xalq musiqi nümunələrini toplayıb nota köçürür, onların məqam, melodik və ritmik xüsusiyyətlərini mənimsəyir. O, topladığı lirik havalar əsasında öz tələbələri üçün tədris repertuarı kimi bir sıra orijinal instrumental əsərlər bəstələyir. Onu da deyək ki, Əlcəzairdə ilk dram teatrı açıldıqdan sonra orada milli musiqi teatrı da fəaliyyət göstərirdi. Bu milli teatr kollektivi üçün ilk baleti R.Hacıyev özü yazır. "Üç inqilab" adlanan bu balet Əlcəzair Mədəniyyət Nazirliyinin sifarişi ilə bəstələnib. İlk baletin uğurlarından ruhlanan Hacıyev, bir ildən sonra ikinci baletini tamamlayır. "Alov" adlanan bu balet də inqilabi mövzuda yazılmışdır. Baletdə Əlcəzair xalqının müstəqillik uğrunda mübarizəsindən söz açılır. Bu əsər Əlcəzair inqilabının tarixinə həsr olunmuşdur. Tamaşanın özünəməxsus musiqisi də diqqəti çəlb edir. "Alov" baletini teatrın truppası Tunis, Mərakeş, Paris, Havanada göstərmişdir. "Hürriyyət" bəstəkarın üçüncü baletidir. Əsər Əlcəzairin bu günündən, yeni həyat quruculuğundan bəhs edir. Müəllif yazırdı: "Ən əvvəl mən musiqi folklorunun öyrənilməsinə başladım. Ölkə üzrə səyahət zamanı tanınmış müğənni və instrumental musiqiçilərlə görüşlər, xalq mahnılarının öyrənilməsi və təhlili mənə bu materialı mənimsəməyə kömək etdi.

Onu da deyək ki, R.Hacıyev 60-cı illərdən başlayaraq ictimai işlərdə də fəal çalışmışdır. O, 1964-cü ildə M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasına direktor, 1965-ci ildə isə Azərbaycan Respublikasının Mədəniyyət Naziri təyin olunur. Nazir işlədiyi illərdə onun təşəbbüsü ilə Azərbaycan Dövlət xor kapellası, Mahnı Teatrı, Azərbaycan Dövlət rəqs ansamblı, eləcə də dünyada birinci Xalçaçılıq muzeyi açılır.

Azərbaycan Bəstəkarlar İttifaqının V qurultayında o, idarə heyətinin birinci katibi, VI qurultayda isə idarə heyətinin katibi seçilmişdir.

Azərbaycan professional musiqisinin görkəmli bəstəkarı dünyasını dəyişsə də, onun musiqisi daim yaşayır və xalqımızın estetik baxımdan formalaşmasında, tamaşaçı və dinləyicilərin musiqi zövqünün inkişafında mühüm rol oynayır. Onun əsərləri klassik və ölməzdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## "Türkiyə ilə Azərbaycan arasında əlaqələr artan dinamika üzrə inkişaf edir"



"Türkiyə ilə Azərbaycan arasında hərbi əlaqələr digər sahələrdə olduğu kimi son illərdə yalnız və yalnız artan dinamika üzrə nümayiş etdirilir". Bu fikirləri SİA-ya açıqlamasında hərbi ekspert Ədalət Verdiyev bildirib. Onun sözlərinə görə, bu görüşlərin əsas məqsədi Azərbaycan ordusunu türk silahlı qüvvələrinin standartları səviyyəsinə uyğunlaşdırılması ilə daha çox əlaqələndirilir: "Digər tərəfdən isə Azərbaycanla Türkiyə arasında hərbi texniki sahədə və digər maraq doğuran məsələlər ətrafında davamlı olaraq fikir və təcrübə mübadiləleri aparılır. Azərbaycanla qardaş Türkiyə bir çox sahələr üzrə əməkdaşlıq edir. İki dövlət arasında hərbi sahədə təlimlər keçirilir. Bu görüşlər Azərbaycan ordusunun türk ordu modelinə keçidi baxımından çox vacibdir. Digər tərəfdən isə Azərbaycan ilə Türkiyə arasında hərbi kəşfiyyat sahəsində birgə əməkdaşlıq, məlumat mübadiləsi baxımından bu görüşlər mühüm əhəmiyyət kəsb edir".

***Abutel İlhamqızı***

# ATƏT-in Minsk qrupu - ölü qurum dəfn edildi!

***Vaxtilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ" münaqişəsinin sülh yolu ilə həlli üçün yaradılmış və bu missiya ilə təhkim olunmuş ATƏT-in Minsk qrupunun 28 il boyunca sözdə "fəaliyyət göstərirmiş" görüntüsü altında turist səfərləri tətbiq etməsi nəticə etibarı ilə iflasa uğradığını çoxdan bəlli etmişdi. Sadəcə, torpaqları işğala məruz qalmış Azərbaycanın ədalətli tərəf olmasına rəğmən, yüksək təmkin göstərməsi və illər boyu münaqişənin sülh yolu ilə həll olunacağına ümid etməsi həmin qurumun bu günə qədər dəyişən çoxsaylı həmsədrləri tərəfindən ciddi qəbul olunmadı və nəticədə rəsmi Bakı səbrinin tükəndiyini nümayiş etdirməklə cəbhə boyunca xain hücuma keçən düşmənə qarşı əks-hücum əməliyyatlarına start verdi.***




*İlham Əliyev: "Minsk qrupu, onun həmsədrlər formatı faktiki olaraq qeyri-funksional vəziyyətdədir"*

Əslində, bu baş verməyə və Azərbaycanın ədalətli tələbləri diqqətə alına, işğalda qalan torpaqları BMT tərəfindən qəbul edilmiş dörd qətnamə əsasında qeyd-şərtsiz azad edilə, minlərlə insanların həyatları xilas ola bilərdi. Təəssüf ki, ATƏT-in Minsk qrupunun ABŞ-dan, Fransadan və Rusiyadan olan həmsədrləri baş verə biləcək hadisələri burunlarından o yana görə bilmədilər və zaman-zaman işğal faktına göz yumaraq vəziyyətin get-gedə gərginləşməsinə yol açdılar.

Beləliklə, 2020-ci ilin sentyabrın 27-də başlanan Zəfər yolu 2020-ci ilin 10 noyabrında başa çatdırıldı və əzəli torpaqlarımız düşmən tapdağından azad edildi, Ermənistan Rusiyanın vasitəçiliyi ilə Azərbaycanın qarşısında diz çökməklə kapitulyasiya sənədinə imza atdı. O cümlədən, Azərbaycan 28 il müddətində ATƏT-in Minsk qrupunun görə bilmədiyi işi 44 gündə həll etdi!

ANALİTİK+AKTUAL

Maraqlıdır ki, bundan sonra Minsk qrupunun həmsədrləri yenidən özlərini "biz də varıq" timsalında nümayiş etdirməyə cəhdlər göstərdilər, çünki onlar hələ də öz şəxsi və digər mənafelərini güdəcəklərini sanırdılar. Lakin onların bu dəfəki arzuları ürəklərində qaldı və xüsusilə, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşləri zaman dövlət başçımızın vurğuladığı ifadələri isbat etdi ki, onlar ölü qurumdurlar və qalır siyasi dəfnlərinin realizəsinə ki, artıq həmin prosesə start verilib.

### Dövlətimizin başçısından xatırlatma: "Bu, onların Azərbaycana müharibədən sonra birinci və sonuncu səfəri idi... Nəticə göz qabağındadır və bir daha demək istəyirəm ki, nəticə sıfır"

Əbəs deyil ki, Prezident İlham Əliyevin Sədrliyi ilə aprelin 12-də keçirilən müşavirədə bu barədə kifayət qədər açıq bəyanatlar verildi. Məsələn, dövlət başçımızın Minsk qrupuna mandatın ATƏT tərəfindən verildiyini xatırlatması, 44 günlük müharibədən sonra isə məhz ATƏT də yeni reallıqları tam qəbul etdiyini vurğulaması artıq bu cür nəticəyə gəlməyə kifayət qədər zəmin yaratmaqdadır. "Bu yaxınlarda ATƏT-in fəaliyyətdə olan sədri ilə mənim görüşüm olub və görüş bir daha onu göstərdi ki, ATƏT də yeni reallıqları qəbul edir və bu da çox əlamətdar hadisədir. ATƏT-in Minsk qrupuna gəldikdə, müharibədən dərhal sonra Minsk qrupunun həmsədrləri Bakıya gəlmişdilər. Bu, onların Azərbaycana müharibədən sonra birinci və sonuncu səfəri idi və o görüşlə bağlı mətbuatda kifayət qədər məlumat var, təkrar etmək istəmirəm", deyə ölkə rəhbərimiz müşavirə zamanı qeyd edib.

Beləliklə, münaqişənin məhz Azərbaycanın öz gücü hesabına həll edildiyini qeyd edən Prezident İlham Əliyev əlavə edib ki, bizim mövqeyimiz həmişə birmənalı olub: "Biz müzakirə zamanı nəyi demişiksə, rəsmi açıqlamalarda da eyni tezisləri, eyni fikirləri səsləndirmişik. Biz bu münaqişəni özümüz həll etdik. Minsk qrupu İkinci Qarabağ müharibəsinə qədər 28 il fəaliyyətdə idi və həmsədr ölkələr bu illər ərzində Azərbaycana, Ermənistana bəlkə də yüzlərlə səfər etmişlər. Nəticə də göz qabağındadır, nəticə sıfır. Bunun səbəbləri də Azərbaycan ictimaiyyətinə məlumdur. Bu haqda çox danışmaq istəməzdim. Nəticə göz qabağındadır və bir daha demək istəyirəm ki, nəticə sıfır və Azərbaycan bu münaqişəni özü həll edib. Hərbi-siyasi yollarla həll edib".

### Prezident: "Biz deyirdik ki, siz bizə deyin görək, nə ilə məşğul olmaq istəyirsiniz? Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan ərazisində Dağlıq Qarabağ inzibati ərazisi yoxdur və olmayacaq"

Daha bir məqam Minsk qrupunun mandatının hələ də qalmasıdır, amma bu o demək deyil ki, adıçəkilən üçlük qrup həll edilmiş məsələ ətrafında yenidən hər hansı "ideyaları" ilə çıxış etsin. Əbəs deyil ki, dövlətimizin başçısı münaqişənin həlli üçün verilmiş mandatın faktiki olaraq, de-yure qüvvədə olduğunu desə də, de-fakto artıq etibarsız sayıldığını xüsusilə vurğulayıb və onu da əlavə edib ki, müharibədən keçən dövr ərzində - son Rusiya-Ukrayna müharibəsinə qədər olan dövr ərzində biz bu məsələ ilə bağlı rəsmi Bakı öz fikirləri bəyan edib: "Bizim xarici işlər nazirimiz Minsk qrupunun həmsədrləri ilə müxtəlif beynəlxalq tədbirlərdə görüşmüşdür və biz deyirdik ki, siz bizə deyin görək, nə ilə məşğul olmaq istəyirsiniz? Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan ərazisində Dağlıq Qarabağ inzibati ərazisi yoxdur və olmayacaq. Siz nə ilə məşğul olmaq istəyirsiniz, deyin, biz də biləк və öz fikrimizi bildirək. Bir ildən çox müddətdə bu məsələ ilə bağlı bizə hər hansı bir təklif verilməmişdir. İndiki şəraitdə isə Minsk qrupu, onun həmsədrlər formatı faktiki olaraq qeyri-funksional vəziyyətdədir".

Digər bir məsələ isə budur ki, Misnk qrupunun fəaliyyətsizliyini, yaxud ölü qurum kimi sadəcə kağız üzərində qaldığını bəyan edən tərəflərdən biri də Rusiyadır. Misal üçün, xatırlada bilərik ki, bir neçə gün əvvəl Moskvada rəsmi səfərdə olan Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla jurnalistlər üçün brifinq keçirərkən Rusiyanın xarici işlər naziri Sergey Lavrov da artıq üçlük qrupun bundan sonrakı fəaliyyətinin mənasız olduğunu qeyd edib.

### Ölkə başçımızın yekun rəyi: "Hər hansı bir qrup şəklində fəaliyyətdən söhbət gedə bilməz"

Bu baxımdan da, Azərbaycan Prezidenti İlham Əliyev həmin məsələni xatırladaraq bildirib: "Bunu artıq bu həmsədr ölkələrin yüksəkvəzifəli şəxsləri bildirirlər və belə olan halda, əlbəttə ki, hər hansı bir qrup şəklində fəaliyyətdən söhbət gedə bilməz".

Qeyd edilənlərlə yanaşı, dövlətimizin başçısı ATƏT-in nüfuzlu beynəlxalq təşkilat kimi bundan sonrakı proseslərdə rol oynaya biləcəyini bildirib, lakin bu təşkilatın mandat verdiyi və həmin mandatı fəaliyyətsizliyi ilə iflasa uğradan Minsk qrupunun varlığına ümumiyyətlə, heç bir ehtiyac, tələbat və s. yoxdur.

Nəticədə, "Hesab edirəm ki, ATƏT bir mötəbər beynəlxalq təşkilat kimi öz rolunu oynaya bilər. Bu yaxınlarda qeyd etdiyim kimi, ATƏT-in fəaliyyətdə olan sədri ilə görüşlər əsnasında mən bildirmişdim ki, vətəndaş cəmiyyətinin nümayəndələri, media nümayəndələri, digər ictimai rəyə nüfuz, yəni təsir edə bilən şəxslər ATƏT-in fəaliyyəti çərçivəsində, yəni ki, bu format çərçivəsində görüşlər keçirə bilərlər ki, Ermənistan-Azərbaycan əlaqələri normallaşsın. İndi gündəlikdə duran məsələ budur. Dağlıq Qarabağ münaqişəsi həll olunub. İndi məsələ Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasıdır və istənilən beynəlxalq təşkilat, bu sahədə öz töhfəsini verə bilən təşkilat, əlbəttə ki, qəbulediləndir", deyən Prezident ilham Əliyev də məsələ ilə bağlı yekun fikirlərini kifayət qədər açıq və aydın şəkildə izah edib. Yəni ATƏT-in Minsk qrupu - ölü qurum dəfn edilib...

***Rövşən RƏSULOV***

# Avropa İttifaqı qərəzsiz tərəfdir

***"Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük hərbi əməliyyatları nəticəsində torpaqlarımız düşmən tapdağından azad edildi və münaqişə bitdi. Post- münaqişə dövründə isə bir sıra məsələlər vardır ki, onlar da öz həllini tapmalıdır. Əsasən bura sərhədlərin dəqiqləşdirilməsi, qarşılıqlı olaraq hər iki ölkənin biri-birinin ərazi bütövlüyünü tanıması, sülh müqaviləsinin imzalanması, eyni zamanda nəqliyyat və kommunikasiyaların açılması kimi bir sıra məsələlər daxildir". Bu sözləri SİA-ya açıqlamasında deputat Cavid Osmanov deyib.***



Onun sözlərinə görə, bütün bunların həlli istiqamətində Avropa İttifaqı, xüsusilə də ittifaqın Prezidenti Şarl Mişel tərəfindən vasitəçilik addımları atılmaqdadır: "Bu formatda ilk üçtərəfli görüş 14 dekabr 2021-ci ildə keçirilib və nəticə etibarilə, cənab Prezident İlham Əliyev və Şarl Mişel tərəfindən Brüssel sülh gündəliyinin əsası qoyulub. Bunun davamı olaraq tərəflər arasında intensiv təmaslar aparılıb, telefon danışıqları keçirilib.

Ümumiyyətlə, post-münaqişə dövründə görüşlər və danışıqlar cənab Prezident İlham Əliyevin Brüssel sülh gündəliyinin tərkib hissəsidir. Məhz 6 aprel görüşü də bu əsasda baş tutmuşdur. 4 saat yarımdan artıq davam edən üçtərəfli görüşün nəticəsi olaraq Şarl Mişel tərəfindən verilmiş bəyanatda təsbit edilib ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqlar başlasın və bunun üçün iki ölkənin Xarici İşlər Nazirliklərinə müəyyən təlimat verilir. Bu, Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklifin qəbulu və bunun əsasında danışıqların aparılmasıdır. Bu sənəddə əsas məqam Azərbaycanın ərazi bütövlüyüdür".

Deputat sözlərinə belə davam edib: "Bəyanatda tərəflərin sərhəd məsələləri üzrə birgə komissiya yaratması və birinci növbədə sərhədlərin delimitasiya prosesinə başlaması barədə razılığın əldə olunduğu qeyd edilir. Delimitasiyanın tərkibi və nəticəsi isə sərhəddə gərginliyin aradan qaldırılması ilə nəticələnəcəkdir. Həmçinin Bəyanatda Avropa İttifaqının minalardan təmizləmə, itkin düşmüş şəxslərin tapılması, eləcədə quruculuq işlərində Azərbaycana dəstək göstərməsi təsdiq olunur. Diqqət çəkən digər mühüm bir məqam isə nəqliyyat-kommunikasiya xətlərinin bərpası və yaradılması, dəmir yolu və avtomobil yolunun çəkilməsi, iqtisadi məşvərət şurası mexanizminin yaradılmasının təsdiq olunmasıdır.

Sənəddə "Dağlıq Qarabağ" ifadəsinin yer almaması, həmçinin keçmişin qalığı olan ATƏT-in Minsk Qrupunun həmsədrlik institutina istinadın olmaması deməyə əsas verir ki, şərtləri birmənalı olraq diktə edən tərəf Azərbaycandır. Təbii ki, Azərbaycan bunu qalib ölkə olaraq edir və cənab Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli siyasət öz effektini verir.

Proseslərin gedişatı göstərir ki, Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaranır. Bunun da məqsədi ilk növbədə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasıdır. Avropa İttifaqı qərəzsiz tərəfdir və hər iki ölkənin bu təşkilata etimadı vardır. Post münaqişə dövründə isə məsələlərin həlli istiqamətində qərəzsiz bir vasitəçiliyin olması xüsusi önəm kəsb edir ki, bu, ölkəmiz üçün daha effektlidir. Burada xüsusilə Şarl Mişelin cənab Prezident İlham Əliyevlə şəxsi dialoqu və təmasları mühüm şərtdir.

6 aprel görüşü və verilən Bəyanatdan bir daha aydın olur k, Azərbaycan qalib ölkə olaraq öz milli maraqlarına uyğun istədiyinə nail olur. Bir sözlə, bu görüşün nəticəsi birmənalı olaraq Azərbaycanının milli maraqları uğrunda cənab Prezident İlham Əliyevin növbəti diplomatik qələbəsidir".

***Ayşən Vəli***

# Ölkəmizdə fikir, söz və məlumat azadlığına xüsusi önəm verilir



***Fikir, söz və məlumat azadlığı demokratiyanın ən əsas göstəricilərindəndir və məhz bu səbəbdən cəmiyyətin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, hər bir cəmiyyətdə, hər bir ölkədə demokratiyanın nə dərəcədə inkişaf etdiyi və demokratik təsisatların nə dərəcədə uğurla işlədiyi məhz həmin cəmiyyətdə, həmin ölkədə söz, fikir və ifadə azadlığının təminatı ilə üst-üstə düşür.***

Təhlil

Eyni zamanda, azad mühitdə sərbəst şəkildə fikir ifadə edilməsi, sərbəst düşüncənin izhar edilməsi üçün hüquqi bazanın olması və bu hüquqlarla təmin edilmə həm də kütləvi informasiya vasitələrinin, eləcə də müasir informasiya cəmiyyətinin söykəndiyi əsas dəyər hesab olunur. Təbii ki, bütün bunlar nəzərə alınaraq Azərbaycanda söz və fikir azadlığı təmin edilir, mətbuat azadlığı prinsipinə hörmətlə yanaşılır.

Ümumiyyətlə, bəşəriyyət əsrlər boyu insan azadlığı uğrunda mübarizə aparıb və hər bir cəmiyyət azadlıq arzusunda olub. Çünki, hər bir cəmiyyət insan azadlığını ən ali dəyər hesab edib. Ölkəmizdə də insan azadlığına xüsusi önəm verilir və cəmiyyətimizin azad cəmiyyətlər sırasında olduğu günümüzün reallığıdır. İnsan azadlığının, söz, fikir və məlumat azadlığının təminatında azad mətbuatın, kütləvi informasiya vasitələrinin rolu danılmazdır, çünki kütləvi informasiya vasitələri, informasiyanın müntəzəm, davamlı formada yayıldığı bütün vasitələr azad cəmiyyətin inkişafına əhəmiyyətli təsir imkanlarına malikdirlər. Məhz informasiyanın yayıldığı bütün vasitələr ictimai fikri formalaşdırmaqla dünyada demokratiya və informasiya azadlığının mühüm vasitəsi hesab olunur.

Elə bu baxımdan da ölkəmizdə kütləvi informasiya vasitələrinin azad fəaliyyəti və inkişafı prioritet hesab olunur və bu istiqamətdə, yəni həmin sahənin daha da inkişafı istiqamətində bütün zəruri, təxirəsalınmaz tədbirlər davam etdirilir.

Azad söz, ifadə, fikir və məlumat azadlığının təminatında xüsusi rolu olan mətbuatımızın nə qədər keşməkeşli yollar keçdiyi bəllidir. Hazırda mətbuatımızın inkişafı təbii ki, onun zəngin keçmişi ilə bilavasitə əlaqədardır və ”Əkinçi” qəzeti ilə əsası qoyulan mətbuatımızın müasir inkişaf yolu keçməsində Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri danılmazdır. Məhz Ulu Öndərin mətbuat azadlığının təmin edilməsində tarixi rolu inkar edilə bilməz. Bilirik ki, mətbuatımızın əsası ”Əkinçi” qəzeti ilə qoyulsa da, daha sonra Sovet imperiyasının təsiri altında heç də müstəqil ola bilməyib və müstəqilliyimizin bərpası ilə mətbuat azadlığı da, söz, fikir və məlumat azadlığı da təmin edilib ki, məhz bu istiqamətdə Ümummilli Liderin danılmaz, əvəzolunmaz xidmətləri olub. Ulu Öndər Heydər Əliyev müstəqil mətbuatın inkişafını demokratiyanın tələbi kimi dəyərləndirərək bu sahəyə diqqətini əsirgəməyib və bununla da mətbuatımız yeni mərhələyə qədəm qoyub, müstəqil olub və söz, fikir, ifadə, eləcə də məlumat azadlığı bununla təmin edilib. Azərbaycanda azad medianın inkişafı ilə bağlı çox mühüm qərarların qəbul edilməsi, verilən sərəncamlar, fərmanlar, azad mətbuatın inkişafına əngəl yaradan süni məhdudiyyətlərin, o cümlədən, senzuranın aradan qaldırılması, qanunvericiliyin təkmilləşdirilməsi, müasir dünya standartlarına uyğunlaşdırılması, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, onlar üçün güzəştlərin müəyyənləşdirilməsi Ümummilli Lider Heydər Əliyevin azad sözə önəm verdiyini və onun daşıyıcılarına yüksək münasibətini təsdiqləyir. Ulu Öndərin rəhbərliyi ilə ölkədə medianın fəaliyyətinin tənzimlənməsi və media sahəsində mükəmməl qanunvericilik bazasına nail olmaq üçün bir sıra addımların atılması təsdiq edir ki, söz, fikir və məlumat azadlığına ilk əvvəldən xüsusi önəm verilib. ”Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” 1998-ci il avqustun 6-da Ulu Öndər tərəfindən imzalanan fərman, eləcə də senzuranın ləğv edilməsi bu istiqamətdə atılan ən böyük addım hesab olunur ki, bu da ölkəmizdə azad cəmiyyətin çoxdan qurulduğundan xəbər verir.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan söz, fikir, ifadə, məlumat və mətbuat azadlığının qorunması ölkəmizdə hal-hazırda cənab Prezident İlham Əliyev tərəfindən təmin edilir və ölkə başçısının daim diqqət mərkəzindədir. Azərbaycanda kütləvi informasiya vasitələrinə, mətbuat işçilərinə ayrılan diqqət, göstərilən qayğı da göz önündədir və bütün bunlar dövlətimizin, dövlət başçımızın azad sözə, fikir, məlumat və mətbuat azadlığına verdiyi qiymətin təcəssümüdür. Jurnalistlərə ali dövlət mükafatlarının verilməsi, onların yaşayış şəraitinin yaxşılaşdırılması üçün onlara mənzillərin verilməsi ölkə rəhbərinin diqqət və qayğısının bariz nümunəsidir. Bütün bunlar isə ümumilikdə onu deməyə əsas verir ki, əsası Ulu Öndər tərəfindən qoyulan ənənə davam etdirilir və ölkəmizdə söz, fikir, ifadə, məlumat və mətbuat azadlığına davamlı olaraq xüsusi önəm verilir.

***İnam Hacıyev***

## “Nar” və "Breyn Rinq" tərəfdaşlığı davam edir




“Nar” 2022-ci ildə də ölkənin nüfuzlu bilik yarışı ”Breyn Rinq”lə əməkdaşlığını davam etdirir. Artıq 19-cu mövsümə start vermiş intellekt müsabiqəsində Azərbaycanın 9 bölgəsini və 8 universitetini təmsil edən 20 komanda yarışır. 19-cu mövsümdə komandalar 3 divizionda, Bakı, regional və tələbə divizionlarında mübarizə aparır. Bakı divizionunda 4, region və tələbə divizionlarının hər birində 8 komanda iştirak edir. Divizionların qalibləri və reytinq əsasında seçilən bir komanda mövsüm finalında görüşəcəklər. Hər cümə saat 22:00-da İctimai TV-də komandalar arasındakı kəskin bilik mübarizəsini izləmək mümkündür.

Qeyd edək ki, müsabiqəni efirdən izləyən ”Breyn Rinq” tamaşaçıları da suallara cavab verməklə və ”Nar”dan hədiyyə qazanmaq imkanına sahidirlər. Bunun üçün efirdə səslənən xüsusi suala ”Nar”ın ”Twitter” səhifəsindən cavab vermək lazımdır.

Korporativ sosial məsuliyyət strategiyası çərçivəsində davamlı layihələri ilə seçilən mobil operator ”Nar” uzun illər ərzində ”Breyn Rinq” layihəsi ilə əməkdaşlıq edir. Bu əməkdaşlıq da ”Nar”ın təhsilə və maariflənməyə dəstək KSM strategiyası çərçivəsində həyata keçirilir.

”Azerfon” şirkəti (”Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. ”Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Şirkət son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur.

## Fərrux dağının Azərbaycan üçün əhəmiyyəti ondan ibarətdir ki, ...

***“Azərbaycan Ordusunun Fərrux dağı istiqamətində mövqelər əldə etməsi və orada ətraf ərazilərə nəzarəti bərpa etməsi Ordumuz üçün mühüm əhəmiyyət kəsb edir. Fərrux dağının nəzarətimizə keçməsinin həm hərbi, həm siyasi, həm də iqtisadi əhəmiyyəti mövcuddur”. Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib.***

Onun sözlərinə görə, Fərrux dağının hərbi əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan buranı nəzarətə götürməklə Ağdərə-Xankəndi yolunu da nəzarətə götürür və bu istiqamətdə yerləşən erməni silahlıları üzərində hakim mövqe əldə edir: ”Siyasi əhəmiyyət ondan ibarətdir ki, Azərbaycan ermənilərə və onları dəstəkləyənlərə aşkar şəkildə mesaj verdi ki, Qarabağda yerləşən ermənilərin təhlükəsizliyinə təminatı yalnız Azərbaycan verə bilər. Yəni, heç bir kənar qüvvə Azərbaycan torpaqlarında kiməsə təhlükəsizlik təminatı verə bilməz”.



Ədalət Verdiyev sözlərinə belə davam edib: ”İqtisadi əhəmiyyət isə ondan ibarətdir ki, burada yerləşməklə həm Ağdamda aparılan quruculuq işlərini təhlükəsiz hala gətirə, həm də ərazidə yerləşən Xaçınçay su anbarına birbaşa nəzarətimizi təmin edə bildik.

Erməni silahlılarının su anbarlarına qarşı törədə biləcəyi təxribatları nəzərə alaraq, Azərbaycan Ordusunun buradan erməni silahlılarını çıxarması Xaçınçay su anbarına qarşı törədilə biləcək təxribatların miqyasını minimuma endirdi”.

***Ayşən Vəli***

# Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq!

*2018-ci ildə "Biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq" tezisi 2020-ci ildə "Qarabağ Azərbaycandır!" şüarına çevrilərək Azərbaycanın müstəqilliyinin dönməz, əbədi olduğunu bir daha sübuta yetirib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci ildə yenidən Prezident seçilməsindən 4 il ötür. Dövlətimizin başçısının 2003-cü ildə ilk dəfə Prezident seçilməsindən ötən 15 il ərzində Azərbaycan misilsiz inkişaf yolu keçib. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi Prezident İlham Əliyevin uzaqgörən siyasəti və həyata keçirdiyi islahatlar nəticəsində ölkəmizin beynəlxalq nüfuzu daha da möhkəmlənib.***

2003-cü ildən ötən dövr ərzində ölkə rəhbərliyi tərəfindən görülən işləri yüksək qiymətləndirən xalqımız 2018-ci il aprelin 11-də keçirilən növbəti prezident seçkilərində bir daha Prezident İlham Əliyevə səs verib. Şəffaf, azad, demokratik şəraitdə keçirilən seçkilərdə İlham Əliyev seçicilərin mütləq əksəriyyətinin - 86,02 faizinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilib. Beləliklə, xalqımız inkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcəyə səs verib. Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, "exit-poll"lar seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşüb. 2018-ci ildə keçirilmiş seçkilər bir daha göstərdi ki, radikalların Azərbaycanın siyasi səhnəsində yeri yoxdur. Xarici qrant hesabına fəaliyyət göstərən, öz dövlətinə qarşı çıxış edən, bir çox hallarda milli satqınlıq nümayiş etdirən ünsürlərə Azərbaycan xalqı bir daha öz yerini göstərib. Beləliklə, 2018-ci ildə xalqımız Prezident İlham Əliyevə səs verməklə ölkədə aparılan demokratik islahatlara "hə" deyib.

2003-2018-ci illər tariximizə möhtəşəm iqtisadi yüksəliş dövrü kimi daxil olub. Bu dövrdə ümumi daxili məhsul 3,2 dəfə, büdcə gəlirləri 13,5 dəfə, valyuta ehtiyatları 26,6 dəfə artıb, maliyyə imkanlarımız əsaslı şəkildə yaxşılaşıb. Maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb. İşsizliyin səviyyəsi 9,2 faizdən 5 faizə, yoxsulluğun səviyyəsi isə 44,7 faizdən 5,4 faizə enib. Sosial infrastruktur inkişaf edib, o cümlədən 3100-dən çox məktəb və 640-dan çox xəstəxana tikilib və təmir edilib. Bölgələrdə 43



**Abil Ağasəfov, YAP Qəbələ rayon təşkilatının sədri**

Olimpiya İdman Mərkəzi yaradılıb.

2003-2018-ci illər ərzində sahibkarlara 2 milyard manatdan çox güzəştli şərtlərlə kredit verilib. Bu kreditlər və sahibkarların öz vəsaiti hesabına minlərlə yeni müəssisə yaradılıb, qeyri-neft sektorunun inkişafı təmin edilib.

Bu dövrdə iqtisadiyyatın neftqaz sektoru əsaslı şəkildə inkişaf edib, 15 il ərzində sözügedən sahəyə xüsusi diqqət göstərilib. Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilib və ölkə böyük gəlirlər əldə etməyə başlayıb. 2007-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Ərzurum qaz kəməri Azərbaycanı qaz ixrac edən ölkəyə çevirib. 2014-cü il sentyabrın 20-də "Cənub Qaz Dəhlizi"nin təməli qoyulub. 2018-ci il mayın 29-da Bakıda "Cənub Qaz Dəhlizi"nin, iyun 12-də isə Əskişəhərdə bu dəhlizin mühüm hissəsi olan Trans-Anadolu qaz boru kəmərinin açılışı olub.

Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün ölkəmizin bütün bölgələri o cümlədən Qəbələ sürətlə inkişaf edir. Rayonun sosial-iqtisadi inkişafı və zəngin turizm potensialı yaxın illərdə Qəbələnin dünyanın məşhur turizm mərkəzlərindən birinə çevrilməsinə zəmin yaradır. Təsadüfü deyildir ki, Prezident İlham Əliyev Qəbələ rayonuna səfərləri zamanı yeni beşulduzlu otel və istirahət mərkəzlərinin açılışında iştirak edir, turizmin daha da inkişafı üçün dəyərli tövsiyələrini verir. Bu qayğıdan ruhlanan iş adamları dünyanın daha müasir turizm xidmətlərini rayonda tətbiq etmək və turistləri heyrətləndirmək üçün yeni otel və istirahət mərkəzlərinin inşasını həyata keçirirlər.

Qəbələnin son illər bir sıra beynəlxalq mədəni-kütləvi tədbirlərə ev sahibliyi etməsi də bu rayona işgüzar səfərə və istirahətə gələnlərin sayını dəfələrlə artırmışdır. O cümlədən, yay-qış turizminin inkişafı, habelə kənd təsərrüfatının tərəqqisi, eləcə də digər sahələr üzrə sürətli yüksəliş tendensiyaları bu uğurların təməllərini möhkəmləndirməkdədir.

Qeyd olunan illər, eyni zamanda, Azərbaycan Ordusunun sürətli inkişaf dövrüdür. Təchizat, silahsursat, texnika, döyüş qabiliyyəti baxımından ordumuz güclü ordular sırasına daxil olub. 2016-cı ilin Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərib. 2020-ci ildə Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə olunan böyük Qələbə ölkəmizin qəti Zəfərini təmin edib. 2018-ci ildə "Biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq" tezisi 2020-ci ildə "Qarabağ Azərbaycandır!" şüarına çevrilərək Azərbaycanın müstəqilliyinin dönməz, əbədi olduğunu bir daha sübuta yetirib.

Hələ 2003-cü ildə dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başlayarkən "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyən İlham Əliyev ötən 19 ildə cəmiyyətdə mütləq çoxluğun böyük rəğbət və etimad göstərdiyi liderə çevrilib. Bu gün ölkəmizin uğurlu inkişafı Prezident İlham Əliyev tərəfindən əminliklə davam etdirilir. İşğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri həyata keçirilir. Böyük qayıdış prosesinin başlanması üçün ciddi addımlar atılır. Azərbaycan xalqı daha inamla irəliyə baxır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq!

## "Müəyyən qüvvələr Azərbaycan-Ermənistan münasibətlərinin qurulmasında maraqlı deyillər"

"Son 30 ildən sonra ilk dəfə Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində birbaşa telefon danışığı baş tutdu. Hesab edirəm bu çox ciddi bir diplomatik nəticə idi, xüsusilə də Ermənistan və Azərbaycan arasında münasibətlərin tənzimlənməsi istiqamətində atılan mühüm addımdır". Bunu politoloq Anar Əliyevin "Səs" qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, telefon danışığı 2020-ci il Vətən müharibəsindən sonra yaranmış reallıqların Ermənistan tərəfindən qəbul edilməsi istiqamətində çox əhəmiyyətli bir gedişdir, addımdır: "Nəzərə alsaq ki, Azərbaycan tərəfi davamlı olaraq Ermənistan və Azərbaycan arasında münasibətlərin tənzimlənməsində birbaşa münasibətlərin qurulması və iki tərəfli əlaqələrin inkişaf etdirilməsində maraqlıdır. Amma digər maraqlı qüvvələr, xüsusilə də Ermənistana təzyiq, təsir etmək və Ermənistanın xarici siyasətini formalaşmasına yön verə biləcək qüvvələr ikitərəfli münasibətlərin qurulmasında o qədər də maraqlı deyildilər. Bu mənada, Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında ikitərəfli görüşün keçirilməsi bu mənada çox uğurlu bir gedişdir".



A.Əliyev onu da bildirdi ki, bir sıra dairələr eləcə də Rusiya bu münasibətlərin, iki tərəfli əlaqələrin qurulmasında o qədər də maraqlı deyillər: "6 aprel Brüssel görüşündən sonra Ermənistan xarici işlər nazirinin Rusiyaya dəvət edilməsi və münasibətlərin tənzimlənməsində Rusiya faktorunun əhəmiyyətli rol oynadığını nümayiş etdirmələri bu münasibətlərin tənzimlənməsində Rusiya vasitəçiliyinə daimi ehtiyacın olduğu əsasını yaratmağa çalışırlar. Hesab edirəm ki, Rusiya tərəfi Ermənistan və Azərbaycan arasında münasibətlərin tənzimlənməsində Rusiyanın vasitəçiliyinə daimi ehtiyacın olduğu görüntüsünü yaratmaqdır, bununla da bu prosesdə davamlı iştirakını təmin etməyə çalışır. Eyni zamanda, Ermənistan baş nazirinin Rusiyaya gözlənilən səfəri zamanı da hesab edirəm Azərbaycan Ermənistan arasında münasibətlərin birbaşa təmasların qurulmasının mümkün qədər qarşısının alınması və bu proseslərin daha çox rəsmi Kremli üzərindən həyata keçirilməsinin istiqamətində müzakirələr və addımlar atıla bilər. Hesab edirəm ki, Ermənistan cəmiyyəti və siyasi elitası Azərbaycanla ünsiyyətin qurulmasının, Ermənistanın düşdüyü vəziyyətdən çıxışın yeganə və alternativsiz variantı yolu olduğunu dərk edir. Buna görə də, mümkün təzyiqlərin qarşısını alaraq Azərbaycanla birbaşa əlaqələrin qurulmasında maraqlı olmalıdır. Bu münasibətlər davamlı olacaqsa həm liderlər, həm də ayrı-ayrı qurumlar arasında birbaşa münasibətlər davamlı xarakter daşıyacaqsa Ermənistanın Azərbaycanla sülh razılaşması da daha sürətli, eyni zamanda, Ermənistanın düşdüyü vəziyyətdən çıxış prosesinin də daha sürətli şəkildə həyat keçirilməsi təmin edilə bilər".

***Gülyana***

## "Törədilən soyqırımlar dünya ictimaiyyətinin diqqət mərkəzindədir"

"Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımlar, qanlı terror cinayətləri növbəti dəfə dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Bu günlərdə ABŞ Dövlət Departamentinin rəsmi saytında ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklərlə bağlı faktların yer alması erməni faşizminə verilən doğru və ədalətli qiymətdir". Bu fikirləri SİA-ya açıqlamasında Trend BİA-nın Baş direktor müavini, siyasi ekspert Sahil Kərimli bildirib.



Onun sözlərinə görə, Dövlət Departamenti bəyan edir ki, 2020-ci ildə etnik erməni qüvvələri azərbaycanlı əsirləri qəddarlıqla qətlə yetirib, işgəncəyə, ləyaqəti alçaldan rəftara məruz qoyub: "Sənəddə həmçinin hazırda Azərbaycan Baş Prokurorluğunin Kəlbəcər rayonunun Başlıbel kəndində kütləvi məzarlıqların axtarışını aparması xüsusi vurğulanır. Bu da mühüm məqamdır. Məlumdur ki, azad edilmiş ərazilərdə kütləvi məzarlıqlar aşkarlanır, vəhşicəsinə qətlə yetirilən azərbaycanlıların meyitlərinin qalıqları tapılır. Ermənilər işğal zamanı və 30 illik işğal dövründə xalqımızın milli, dini, tarixi keçmişinə qarşı da vandalizm aktları həyata keçirib. Füzuli, Ağdam, Zəngilan, Kəlbəcər və Cəbrayılda azərbaycanlılara məxsus onlarla qəbiristanlığın dağıdılması ilə bağlı sübutlar üzə çıxıb. Bu faktların da Dövlət Departamentinin hesabatına salınması müsbət haldır. Hesabatda həmçinin 2020-ci ildə Ermənistanın hərbi kapitulyasiyasından sonra 7 azərbaycanlı hərbçi və 29 mülki şəxsin minaya düşərək həlak olması, xeyli sayda insanın yaralandığı qeyd edilir. Hesab edirəm ki, bunlar Ermənistan dövlətinin əsl simasını, cinayətkar mahiyyətini ortaya qoyur və bütün dünyaya göstərir. Ermənilərin rəzil, qəniçən, faşist əməllərini beynəlxalq ictimaiyyət tanıyır.

Bütün bunlar eyni zamanda Azərbaycan diplomatiyasının növbəti uğurudur. Haqq səsimizin dünyaya çatdırılması, Azərbaycan həqiqətlərinin beynəlxalq arenada təbliğ edilməsi, xüsusilə də Prezident İlham Əliyevin uzun illər apardığı informasiya müharibəsi öz bəhrəsini verir.

Əlbəttə ki, ABŞ Dövlət Departamentinin yaydığı bu faktlar erməni vandalizmini və ləyaqətsizliyini tam əks etdirmir, bunlar erməni cinayətlərinin yalnız bir hissəsidir. 44 günlük Vətən Müharibəsi zamanı işğalçı Ermənistan Azərbaycanın dinc yaşayış məntəqələrini qadağan edilmiş ağır silahlarla atəşə tutdu və yüzlərlə mülki əhali şəhid oldu. Ermənilərin bu hərbi cinayətlərinə dünya ictimaiyyəti hər hansı sərt reaksiya verdimi? Təəssüf ki, yox. Bu, Azərbaycana qarşı yürüdülən ikili siyasətin növbəti göstəricisi idi. Bütün dünyaya yaxşı məlumdur ki, erməni quldur dəstələri 80-ci illərin sonlarından başlayaraq azərbaycanlılara qarşı kütləvi soyqırım həyata keçirib, xüsusi amansızlıqla qətliamlar törədib. Ermənilərin törətdiyi Xocalı soyqırımı bəşəriyyətin ən qanlı cinayətlərindəndir.

Ermənistanın törətdiyi cinayətlər nəinki bəyanatlarda, hesabatlarda əks olunmalı, bu vəhşilikləri həyata keçirən qaniçənlər bir-bir məsuliyyətə cəlb edilməli, layiqli cəza almalıdırlar. Dünyanın nüfuzlu ölkələri, beynəlxalq təşkilatlar buna nail olmalıdır".

***Abutel İlhamqızı***

# İnsana qoyulan ad onun həyatına necə təsir edir?

*İnsan özünə aid olan hər şeyi daha çox qiymətləndirir. İnsanın bəlkə də ən dəyər verdiyi amil onun adıdır. Adına verdiyi dəyəri avtomatik olaraq adını xatırladan başqa şeylərə verir. İnsanlar adlarını xatırladan yerlərdə yaşayır, orda gəzir, adlarını xatırladan işlərlə məşğul olur, hətta adını çəkən insanlarla evlənirlər.*




Məsələn, ABŞ-ın Luiziana ştatında çoxlu sayda Louise adları var. Bu, həm orada doğulanlara, həm də ora köçənlərə aiddir.

Valideynlərimiz bizə ağlımıza belə gətirmədiyimiz, lakin həyatımıza böyük təsir edən bir hədiyyə qoyur. Bu hədiyyə bizə verilən addır.

Onlar yeni doğulmuş övladına ad seçməkdə çətinlik çəkirlər. Bu bir növ yaradıcılıq tələb edir. Həm də bu ad sanki onların xarakterlərindən xəbər verir.

Əksər valideynlər bunun fərqində olmasalar da, övladları üçün seçdikləri ad, uşağın başqaları tərəfindən necə göründüyünü və gələcəkdə onun hansı xarakterdə olacağını formalaşdıracaq qədər əhəmiyyətlidir.

ABŞ-ın Arizona Dövlət Universitetində adların psixologiyasını tədqiq edən David Zhu deyir ki, ad fərdin mənlik anlayışının əsasını təşkil edir, çünki o, digər fərdləri tanımaq və onlarla ünsiyyət qurmaq üçün istifadə olunur.



Təbii ki, xarakterimizi müəyyən edən təkcə adımız deyil. Sahib olduğumuz genlər qədər, böyüyərkən yaşadığımız təcrübələr, xüsusilə kiminlə vaxt keçirdiyimiz, həm işimizdə, həm də şəxsi həyatımızda necə məsuliyyət daşıdığımız əsas amillərdəndir.

Həmçinin, adımızın oynadığı rolu unutmaq olmaz. Çünki ad doğumdan ömrümüzün sonuna kimi bizimlə qalır.

Şəxsiyyət Nəzəriyyəsinin qurucularından biri olan Gordon Allport 1961-ci ildə ”Adımız həyatımız boyu şəxsiyyətimizin ən mühüm sütunu olaraq qalır” demişdi.

Adımız həmçinin hansı etnik qrupa mənsub olduğumuz və kimliyimizin digər aspektləri ilə bağlı təfərrüatları açıqlaya bilər. Unutmayaq ki, adlar çox vaxt etnik mənsubiyyətimiz və kimliyimizin digər elementləri haqqında yanlış məlumat verir.

Adımızın yaratdığı nəticələr bunlarla məhdudlaşmır. Müəyyən bir mədəniyyətdə bəzi adlar geniş istifadə oluna və ya az bilinə bilər. Həmçinin adların müsbət və ya mənfi mənaları ola bilər. Ad istəristəməz insanların bizə qarşı davranışlarını və özümüzlə bağlı hisslərimizi formalaşdırır.

Yəqin ki, insan özünü daha çox adını xatırladan yerlərə, insanlara aid hiss edir. Həmçinin, insanlar adlarına görə məsxərəyə qoyulur. Əgər həmin şəxsin adı mənfi məna daşıyırsa, gənc yaşda digər uşaqların həmin şəxslə lağ etmələri ehtimalı var. Bu da insanın əhvalına təsir edə bilər.

Məsələn, depressiyadan müalicə olunan xəstələrin adları araşdırıldığında ad və ya soyadlarında mənfi məna daşıyanların çox olduğu görülüb.

Bir araşdırmada Kaliforniya əyalətində ölən insanların adları araşdırılıb. Adları mənfi məna daşıyan insanların daha əvvəl öldüyü aşkar edilib.

İnsanın adı ilə həyatı arasında bağlılıq var. Uğura ad deyil, ailə təsir edir. Amma ad həm də bu uğurun siqnalıdır.

Həmçinin ailələr çox vaxt uşaqlarına sevdikləri insanların adını qoyurlar. Yəni uşaq dünyaya gələn kimi ona verilən adla ailə tərəfindən uşağa çox böyük bir məna və gözlənti qoyulur.

Nəticədə adımızla həyatımız arasında bağlılıq yaranır. Ancaq həyatımızı istiqamətləndirən tam olaraq adımız deyil. Ailəmizin və cəmiyyətimizin verdiyi mənalar adımızda gizlənir.

SİA ”Uşağa qoyulan ad onun həyatına necə təsir edir?” mövzusunda araşdırma apararaq ekspert, sosioloq, din xadimi və psixoloqların məsələ ilə bağlı fikirlərini



öyrənib.

**Psixoloq Fərqanə Mehmanqızı:** ”Uşağa qoyulan adların onun həyatında çox böyük önəmi var. Söz də belədir. Sözün də ağırlığı və böyük əhəmiyyəti var. İnsan özünə qarşı hansı sözün istifadə edildiyindən asılı olaraq onun təsiri altına düşür və xarakterin formalaşması dövründə ona təsir edir.

Elə valideynlər var ki, uşaqlarını müəyyən heyvan adları ilə səsləyirlər. Bu düzgün yanaşma deyil.

Hər bir uşaq adına görə qürur duyub fəxr etməlidir və valideynlər övladına elə bir ad qoymalıdır ki, o adına görə utanmasın”.

**Din xadimi Mircəfər Əyyu-**



**bov:** ”Din xadimi Mircəfər Əyyubov: ”Uşaqlara verilən adlar fiziki, təbii və indiki mövcud yaşayış tərzi baxımından çox da böyük əhəmiyyət kəsb etmir. Yəni, əksər uşaqlar nə uşaq vaxtı, nə də böyüyəndə heç adlarının fərqinə varmırlar və bu onların həyatında heç bir təsir buraxmır. Lakin dini baxımdan adların lazımlı şəkildə seçilməsi böyük önəm kəsb edir. Bu vahid qaydalar çərçivəsinə daxil olmasa da çox tövsiyə olunur. Xüsusilə müqəddəs şəxslərin adları məsləhət görülür.

Əgər bir ailədə müqəddəs adlardan hər hansı biri olarsa, mələklər o evə tez-tez gedib gələr. Din bu adlara böyük önəm verir. Çünkü dinimizə görə insan elə belə yeyib içib çıxıb getmək üçün dünyaya gəlməyib. Din bütün insanları məsuliyyətli şəxs olaraq qəbul edir və onlara potensial dahi kimi baxır. Ona görə də dini adlara diqqət yetirmək tələb olunur.

Çalışın elə adlar qoyun ki, o uşaqda psixoloji təsir buraxmasın və uşaq adından utanmayaraq rahat şəkildə yaşaya bilsin”.

**Psixoloq Aytən Ələkbərova:**



”İnsanın həyatında, ilkin və ikinci şəxsiyyət dövründə ad çox önəmlidir. Çünki istifadə etdiyimiz sözlər insanın üz ifadələrinə birbaşa təsir edir. Bu da istifadə etdiyimiz hər sözün və adın özünəməxsus enerjisi olduğunu göstərir.

Adımızın bizə təsir edən enerjisi bizim birbaşa həyatımızda arzularımıza, arzularımızın həyata keçməsinə, xəyallarımızın qurulmasına qədər öz təsiri göstərə bilir. Hətta bunu rahatlıqla yoxlaya bilərik.

Adımızın mənası bizim həyat və yaşam tərzimizə təsir edir. Çünki insanlara verilən şəxsi isimlər onlar üzərində müəyyən təsirlərə malikdir və psixoloji problemlərin həllində belə şəxsə kömək edir.

Ona görə də eşitdiyimiz adın insan psixasına energiyasını düşünərək ən gözəl adları özladımıza seçməliyik”.

***Ayşən Vəli***

ARAŞDIRMA

# Qarşımızda duran bütün vəzifələr icra edilib

***Prezident İlham Əliyevin sədrliyi ilə aprelin 12-də keçirilmiş cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə çox mühüm məqamlara toxundu, vacib mesajlar verdi və qeyd etdi ki, postmünaqişə dövrünün birinci ilinin nəticələri deməyə əsas verir ki, 2022-ci ili də uğurla başa vuracağıq: "Keçən il ölkəmizin həyatında çox əlamətdar bir il olmuşdur. Müharibədən sonra birinci il olmuşdur. Əlbəttə ki, müharibədən sonrakı dövr üçün keçən ilin çox böyük əhəmiyyəti olmuşdur. Bizim əsas məqsədimiz keçən il həm azad edilmiş torpaqlarda bərpa işlərinə start vermək idi, eyni zamanda, beynəlxalq müstəvidə yeni reallıqları qəbul etdirmək idi və hər iki istiqamət üzrə nəticələr göz qabağındadır".***

Hər bir ölkənin inkişafında, hədəflərə uğurla nail olunmasında əsas amil olan iqtisadi inkişafa nəzər salsaq Azərbaycanın ilin birinci rübündə əldə etdiyi sosial-iqtisadi göstəricilərin qənaətbəxş olduğunu görərik. Bu müddətdə ümumi daxili məhsul 6,8 faiz, qeyri-neft iqtisadiyyatımız 10 faizdən çox artıb. Sənaye istehsalı sahəsində artım təxminən 4 faizdir. Qeyri-neft sənaye istehsalında artım 18 faizdən çoxdur. Bu rəqəmlər ölkədə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsindən, həmçinin neftqaz sektorundan asılılığın azaldılmasından xəbər verir.

Dövlət başçısının diqqət yetirdiyi məsələlərdən biri də postmüharibə dövrünün reallıqları, eləcə də Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması oldu.

### MƏĞLUB TƏRƏF QALİBİN ŞƏRTLƏRİNİ QƏBUL ETMƏK MƏCBURİYYƏTİNDƏDİR

Azərbaycan Prezidentinin sülh sazişinin bağlanması üçün irəli sürdüyü təkliflər hər iki xalqın istəklərini əks etdirir. Aprelin 12-də cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədəki çıxışında Prezident İlham Əliyev son aylarda Ermənistanla aparılan danışıqları, sülh sazişinin bağlanması ilə bağlı məsələləri, Avropa İttifaqının təşkilatçılığı ilə keçirilən üçtərəfli görüşləri dəyərləndirərək bir daha reallığı, əsl həqiqəti bəyan etdi: "Postmünaqişə dövründə dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul etmişlər... Eyni zamanda Avropa İttifaqı ilə bizim təmaslarımız müharibədən sonra daha intensiv xarakter almışdır. Avropa İttifaqı da postmünaqişə dövrünün reallıqlarını qəbul etmişdir".

Dövlət başçısı birmənalı olaraq ictimaiyyətin diqqətinə çatdırdı ki, məğlub ölkə qalib Azərbaycanın irəli sürdüyü istənilən təkliflə hesablaşmağa məhkumdur. Çünki Ermənistanın düşdüyü acınacaqlı durumdan, daxili xaosdan qurtuluş yolu yalnız Azərbaycanla münasibətləri normallaşdırmaqdan keçir. Təsadüfi deyil ki, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə dekabr və aprel aylarında keçirilmiş üçtərəfli görüşlərin nəticəsi olaraq imzalanmış yekun bəyanatda "Dağlıq Qarabağ" ifadəsi də yer almayıb. Təbii ki, bu da Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasətin daha bir nəticəsidir. Hazırda Avropa İttifaqı Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması ilə məşğuldur və son aprel görüşündə bu məsələlər müzakirə edilib. Azərbaycan iki ölkə arasındakı əlaqələri normallaşdırmaq üçün 5 prinsipdən ibarət təklif verib. Ermənistan tərəfi də bu təklifə müsbət yanaşıb. Prezident bu məsələyə konkret toxunaraq bir daha təsdiqlədi ki, Ermənistan qalib ölkə ilə hesablaşır: "Azərbaycan iki ölkə arasındakı əlaqələri normallaşdırmaq üçün 5 prinsipdən ibarət təklif vermişdir və Ermənistan tərəfi də bu təklifə müsbət yanaşmışdır və Brüssel görüşünə qədər artıq bu açıqlamalar verilmişdir. Brüssel görüşündə isə mən bunu özüm üçün, sadəcə olaraq, daha da, yəni aydınlaşdırmaq istəyirdim və aydınlaşdırdım ki, Ermənistan 5 prinsipi qəbul edir. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü qəbul edilir və Ermənistan Azərbaycana ərazi iddiasından əl çəkir. Yəni əgər bu 5 prinsipi qəbul edirsə, - bu, aprel görüşündə təsdiqləndi, - bu məsələlər bu 5 prinsipin tərkib hissəsidir. Bu, çox müsbət haldır və hesab edirəm ki, ikitərəfli əlaqələrin normallaşdırılması üçün əsas şərtdir".

### GÜCLÜ DÖVLƏT OLAN AZƏRBAYCAN BÖYÜK QAYIDIŞI YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN ETMƏK ƏZMİNDƏDİR



**MUXTAR NAĞIYEV, YAP Səbail rayon təşkilatının sədri**

Hazırda Azərbaycan dövləti üçün ən prioritet məsələ işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın qısa müddətdə yüksək səviyyədə təmin edilməsidir. Güclü dövlət olan Azərbaycan Böyük Qayıdışı yüksək səviyyədə təmin etmək əzmindədir. Hazırda işğaldan azad olunan ərazilərdə görülən işlər bu gücü bir daha göstərir.

Prezident İlham Əliyev müşavirədə çıxışı zamanı qeyd etdiyi kimi, "Azərbaycan öz gücü ilə hər şeyi bərpa edəcək və Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracaq. Belə olduqda beynəlxalq birliyin bu regiona baxışı tamam dəyişəcək. Bu da gələcəkdə Qarabağ regionunda beynəlxalq ictimai-siyasi, mədəni-kütləvi tədbirlərin keçirilməsinə rəvac verəcək".

Dövlət başçısı İlham Əliyev müşavirədəki yekun nitqində qarşıdakı bir-iki il üçün bu torpaqlarda görüləcək işlərin miqyasını açıqladı. Bu işlər nəqliyyat infrastrukturunun yenilənməsi, bərpası, qaz, enerji xətlərinin çəkilişi, şəhərlərin baş planlarının hazırlanması, ərazilərin minalardan təmizlənməsi və Böyük Qayıdışın tezliklə reallığa çevrilməsidir.

Bir sözlə, hər zaman verilən vədin, irəli sürülən təşəbbüslərin gerçəkliyə çevrildiyinin şahidi olan xalqımız işğaldan azad edilmiş ərazilərimizlə bağlı bütün planların real həyatda öz əksini tapacağına və vahid Azərbaycan dövlətinin bundan sonra da uğurla, inamla inkişaf edəcəyinə əmindir.

# "Qeyri-neft ixracında kənd təsərrüfatı mühüm rola malikdir"

"Kənd təsərrüfatı iqtisadiyyatın mühüm struktur elementlərindən biridir və iqtisadiyyatda əhəmiyyətli rol oynayır". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Xalid Kərimli bildirib. Onun sözlərinə görə, Azərbaycanda ümumi daxili məhsulun 5-6 faizi məhz kənd təsərrüfatında formalaşır: "Təbiidir ki, bu göstərici zaman-zaman dəyişir. Ümumi dəyər isə məhz kənd təsərrüfatında yaranır.



İkinci məsələ isə iqtisadiyyatda bu faiz az görünə bilər. Amma məşğulluq baxımından ciddi dəstək verilir. Xüsusilə də rayon və kəndlərdə yaşayan əhalinin məşğulluğunu təmin edir. Azərbaycanda məşğulluğun 35-36 faizi, əhalinin üçdə biri kənd təsərrüfatında məşğulluq tapıb.

Düzdür, deyilə bilər ki, işsiz insanların da sayı çoxdur. Lakin məşğulluq statiskasına əsasən balansında torpaq varsa, avtomatik həmin şəxs məşğul sayılır. Həm məşğulluqda, həm də iqtisadiyyatda bu belədir. Azərbaycanda qeyri-neft ixracında da kənd təsərrüfatı mühüm rola malikdir. Bu ilə qədər həmişə ilk beşlikdə kənd təsərrüfatı olub. Pomidor, xurma, fındıq ilk beşliyimizdə ənənəvi olaraq özünə yer tapan tərəvəz və bağçılıq məhsullarıdır. Bu da ölkəyə əlavə valyuta deməkdir.

Ərzaq təhlükəsizliyi baxımından kənd təsərrüfatı mühüm rol oyanır. Ərzaq bolluğu, ərzağın qiymətinin kəskin bahalaşması baxımından ərzaq bazarında rəqabət yaranır. Ölkənin milli təhlükəsizliyində ərzaq təhlükəsizliyinin də rolu böyükdür".

***Səbinə Hüseynli***

# Alimliyə gedən yol

***Həmişəki kimi üç saat mətləbdən uşaqlaşmaq fikrində deyiləm. Birbaşa mətləbə keçirəm və deyirəm: alimliyə gedən yol təbii ki, Azərbaycan Milli Elmlər Akademiyasından keçir. Ta AMEA-ya qədərki orta və ali təhsil məktəblərindən danışmaq fikrində deyiləm. Çünki danışsam, bu yazının janrının tələblərini aşmış olacağam.***




Bəli, alimliyə gedən yol belədir ki, orta məktəbi bitirirsən, ali məktəbə daxil olursan, oranı da bitirirsən, magistraturaya qəbul imtahanlarında iştirak edirsən, daxil ola bilsən, oxuyursan. Bütün bunlar səni elmi dərəcə almağa, alimliyə aparan yolun çığırlarıdır. Bu çığırlardan çıxıb əsas yolu tapa bilsən, bu yol da səni düz aparır alim olmaq üçün sonrakı mərhələyə-Milli Elmlər Akademiyasına. Sənə elə gəlir ki, arxada qoyduğun illərtək, AMEA-nın doktorant və dissertantı kimi irəlidəki illəri də sürətlə keçib müdafiə edib, elmi dərəcə alacaqsan, sonra da başını aşağı salıb digər işlərinlə məşğul olacaqsan. Həyat öz axarı ilə axacaq, sən daha yeni axtarışlara çıxacaqsan, öz üzərində işləyəcəksən, həvəslə bir sahənin bir məsələsini tədqiq edib alimliyin zirvələrini fəth edəcəksən. Xeyirli, uğurlu olsun, nə deyirik ki... Allah-təala hər kəsi arzularına çatdırsın, Amin!

Əslində belə də olmalıdır, başqa nə cür ola bilər ki?.. Dövlətimiz tərəfindən Milli Elmlər Akademiyası üçün yaradılmayan şərait qalmayıb. Bu sahə də, bu sahənin adamları da, onların sosial qayğıları da, ümumiyyətlə, həmişə diqqət mərkəzində olub. Lakin Elmlər Akademiyasında nələr baş verir, vallah, bunu bilmirik, lakin bəzi bildiklərimiz, hətta bildiklərimizi təsdiq edən faktlar var. Bildiklərimizdən danışaq.

Əgər alim olmaq istəyirsənsə, bu barədə lap gənc yaşlarından fikirləş, yola çıx. Çünki Milli Elmlər Akademiyasının yoluna qədəm qoydunsa, ta bil ki, elə bu yolda da qalacaqsan. Ona görə deyirəm gənclikdən başla ki, bəlkə qocalıb əldən düşəndə müdafiə edib qurtarasan. Bu yolda saçsaqqal ağartmaq var, ailə qurmaq, digər bir işlə məşğul olmaq barədə əsla düşünmə. Bu yol sənin gəncliyini, orta yaş dövrlərini əlindən alacaq, elə bu yolda da ahıllığa çatacaqsan. İllərlə gedib-gələcək, amma müdafiə edə bilməyəcəksən. Bilmirəm nədəndir, lakin Milli Elmlər Akademiyasının müasir iş prinsipi məhz belədir.

Digər bir məsələ də lap son illər meydana çıxıb, ondan da bir az danışaq. Müasir qaydalara əsasən Milli Elmlər Akademiyasına qəbul üçün gərək əvvəlcə bir xarici dildən imtahan verib bal toplayasan. Müəyyən qaydalara əsasən başqa bir fənn də var, ondan bəhs etmirəm. Elə xarici dil imtahanından danışmaq kifayətdir. Bir tanışım vardı. Yazıq fransız dili müəllimi idi. Qayda belədir ki, məsələn, ixtisasın fransız dilidirsə, bu halda başqa bir xarici dil seçməlisən. O yazıq da aylarla ingilis dilindən hazırlıqlara getdi, sonra imtahan verib balını topladı. Haqqında danışdığım adam gənc adam idi. Təbii ki, buna enerjisi çatdı. Maraqlıdır, görəsən 40-50 yaşlarında insan müdafiə üçün o yaşdan sonra hansısa dili mənimsəyib, alim olmaq yolçuluğuna çıxa bilərmi? Tutalım ki, bir nəfər ziyalı öz sahəsində yaxşı bir mütəxəssisdir, elmi iş götürüb müdafiə etmək istəyir, lakin bu dil imtahanı onun qarşısında böyük maneədir. Məktəbdə də bu dillərdən heç birini öyrənməyib. Necə etməlidir? Və yaxud, ondan qat-qat aşağı bilikdə olan adam gəncdir, dillərdən birini də az-çox öyrənib, imtahan verir, bal toplayır, AMEA-ya qəbul olur. Onların hansının cəmiyyətə xeyri ola bilər, bax bu suala cavab axtarıram. Tapa bilmirəm, qorxuram. Niyə qorxuram?

Qorxuram ki, belə getsə Azərbaycanda insanlar alim olmaqdan vaz keçələr. Çünki alimliyə gedən yol çox daş-kəsəklidir. Yəqin gərəkdir ki, öncə o yolu daş-kəsəkdən təmizləyək. Sonra...

***Mətanət MƏMMƏDOVA***

# 2022-ci ili də uğurla başa vuracağımıza böyük əsaslar var

***"Bu ilin üç ayında ölkəmiz bütün sahələrdə uğurla inkişaf edib. Biz bu üç ayın yekunlarını keçən il əldə edilmiş uğurların davamı kimi qiymətləndirməliyik".Bu sözləri Azərbaycan Respublikasının Prezidenti aprelin 12-də bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə deyib.***



**SEYFƏDDİN ƏLİYEV, YAP Masallı rayon təşkilatının sədri**

Keçən ilin ölkəmizin həyatında çox əlamətdar bir il olduğunu deyən dövlət başçısı vurğulayıb ki, müharibədən sonrakı dövr üçün keçən ilin çox böyük əhəmiyyəti olmuşdur: "Əlbəttə ki, müharibədən sonrakı dövr üçün keçən ilin çox böyük əhəmiyyəti olmuşdur. Bizim əsas məqsədimiz keçən il həm azad edilmiş torpaqlarda bərpa işlərinə start vermək idi, eyni zamanda, beynəlxalq müstəvidə yeni reallıqları qəbul etdirmək idi və hər iki istiqamət üzrə nəticələr göz qabağındadır".

Dövlətimizin başçısı onu da bildirdi ki, bütün bu nailiyyətləri heç kimdən bir manat belə dəstək almadan öz zəhmətimiz hesabına həll etmişik: "Biz bütün bu nailiyyətləri öz zəhmətimiz hesabına qazanmışıq. Heç kimdən bir manat dəstək almamışıq. Azad edilmiş torpaqları da yüz faiz öz gücümüzə bərpa edirik. Bəli, xarici şirkətləri dəvət etmişik. Onlar orada podratçı kimi işləyir. Amma bu günə qədər heç kimdən bir manat almamışıq. Ancaq öz gücümüzə, öz istedadımıza güvənirik".

### "GƏLƏCƏYƏ BAXDIQDA, MƏN TAM ƏMİNƏM Kİ, AZƏRBAYCAN DAHA DA GÜCLƏNƏCƏK"

Bəli, bugünkü uğurlar bunu bir daha təsdiqləyir. Dövlət başçısı keçirilən müşavirədə də bir daha bildirib ki, Azərbaycan bundan sonra daha da güclənəcək və xalqımız bunun şahidi olacaqlar: "Əlbəttə, gələcəyə baxdıqda, mən tam əminəm ki, Azərbaycan daha da güclənəcək. Bu gün digər məsələləri müzakirə edərkən bir daha Azərbaycan ictimaiyyəti bunu görəcəkdir. Ermənistanın isə inkişafı onun özündən asılı olacaq, Ermənistanın qonşu ölkələrə olan münasibətindən asılı olacaq. Çünki indi hər kəsə aydındır ki, Azərbaycanla və Türkiyə ilə əlaqələri normallaşdırmadan Ermənistan inkişaf edə bilməz və onların 30 illik işğalçılıq siyasəti onların özlərinə baha başa gəldi. Onlar real müstəqil ölkə olmaq şansını itirmişlər. Biz isə 30 il ərzində, - baxmayaraq ki, torpaqlarımız işğal altında idi, - tam siyasi və iqtisadi müstəqilliyə nail olmuşduq. Ona görə bu gün inamla və qürurla öz sözümüzü bütün kürsülərdə deyirik. Ona görə Ermənistan üçün bəlkə də bu, son şansdır. Ya ölkə inkişaf edəcək, ya da daha ağır vəziyyətə düşəcək".

Qarşıda dayanan vəzifələrdə Böyük Qayıdışı təmin etmək üçün bütün addımların atılmasının nəzərdə tutulduğunu deyən dövlət başçısı bildirdi ki, ötən ildə olduğu kimi bu il də işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma işlərini aparmaqdır: "Əsas məsələ görülən işlərin fonunda vətəndaşların məmnunluğunun artırılmasıdır. İşğaldan azad edilmiş ərazilərimizdə bərpa və yenidənqurma işlərinin miqyası, onların müasir tələblər səviyyəsində həyata keçirilməsi bunu bir daha təsdiqləyir. Ümumiləşdirilmiş şəkildə qeyd etsək 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirə işğaldan azad edilmiş ərazilərimizdə görülən işlərin və qarşıdakı dövrdə hədəflərin təqdimatıdır. Bu inam ifadə edilir ki, qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olacağıq. Buna əsas verən Azərbaycanın daim yeni-yeni hədəflərə doğru inamla irəliləməsi və dövlətimizin uğurlu siyasəti nəticəsində onlara zamanında nail olunmasıdır."

Bir sözlə, birinci rübünün yekunları 2022-ci ili də uğurla başa vuracağımıza böyük əsaslar yaradır və Azərbaycan regionda ən sürətli inkişafla başa vuran ölkələrdən olacaq.

## Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir



Fortepiano, orqan və klavesin kafedrası
Professor, pedaqoji elmlər namizədi
Professor

Nəfəs və zərb alətləri kafedrası
Dosent

İxtisas fortepiano kafedrası
Dosent

Solo oxuma və opera hazırlığı kafedrası
Dosent

Metodika və xüsusi pedaqoji hazırlıq kafedrası
Baş müəllim

Konsertmeyster ustalığı kafedrası
Baş muəllim

"Şifahi, ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi": orqanologiya və akustika elmi laboratoriyası
Baş elmi işçi, sənətşünaslıq namizədi
Kiçik elmi işçi

Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır.

Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər.

Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.

# Tarixçi alim: "Erməni vəhşilikləri haqda məlumatları gələcək nəsillərə ötürməliyik"

***"Prezident ötən gün keçirilən müşavirədə dediyi "Erməni vəhşiliklərini unutmamalıyıq" sözlərində çox haqlıdır. Bu sözlər bütün Azərbaycan xalqına ünvanlanıb. Çünki hər zaman ermənilərdən bizə qarşı canlı ölüm aləti olaraq istifadə olunub". Bu sözləri SİA-ya açıqlamasında Tarix İnstitutunun icraçı direktoru Cəbi Bəhrəmov bildirib.***

Onun sözlərinə görə, onlara müxtəlif vədlər verilib və maddi yardım olunub: "Bunun nəticəsində onların törətdikləri cinayətlər göz qabağındadır. Ermənilər Azərbaycana qarşı heç vaxt xoş münasibət bəsləməyib. Ölkəmizə qarşı hər zaman düşmənçilik mövqeyindən çıxış edib. Əlbəttə ki, Prezident sözlərində haqlıdır. Ona görə ki bunları unutmaq, bütün bu cinayətlərin üstündən xətt çəkmək deməkdir. Erməni vəhşiliklərini nəsildən-nəslə ötürmək hər birimizin borcudur".



Tarixçi sözlərinə davam edərək həmçinin qeyd edib ki, biz insanlıq göstərərək torpaqlarımızın bir hissəsini onlara güzəştə getdik: "Lakin qarşısında cinayət, soyqırım gördük. Ermənilərin bizim əsirlərimiz üzərində keçirdikləri insanlıqdan uzaq əməliyyatları heç cürə unutmaq olmaz. Təbii ki, bizim münasibətimiz tolerantlıq nümunəsidir. Prezidentin müşavirədə qeyd etdiyi kimi, bir həftə Ermənistanda qazın kəsilməsi səbəbilə bütün dünyada şivən qopardı. Halbuki Azərbaycanın demək olar ki, 2005-ci ilə qədər saysız-hesabsız sosial-iqtisadi çətinlikləri olub. Amma bununla bağlı heç bir qurum və ya heç bir dövlət səsini çıxarmadı. Bu, tamamilə anti-insani münasibətdir.



Sonunda biz gücümüzü göstərdik. Torpaqlarımızı geri qaytardı və bərpa işlərini həyata keçiririk. Əgər ermənilərdə insanlıq sifəti qalıbsa, onlar nəinki Azərbaycan torpaqlarından hətta bütün Cənubi Qafqazdan çıxıb getməlidir. Bəlkə kimlərsə düşünür ki, hər bir dövlətin yaşaya biləcəyi kimi bizim də başımıza müharibə gəldi. Amma belə müharibə olmur. Heç bir Azərbaycan vətəndaşı bu yaşananları unutmamalıdır".

***Ləman Əlizadə***

# Bakı hələlik (!) səbrlə, təmkinlə gözləyir...

İrəvanın isə bir neçə günü qalıb - aprel ayının sonları yaxınlaşır!

Brüssel görüşündə yadda qalan daha bir amil Avropa İttifaqı (Aİ) Şurasının rəhbəri Şarl Mişelin erməni informasiya məkanını və analitik nəşrlərini ciddi şəkildə qıcıqlandıran görüş nəticələri ilə bağlı bəyanatı oldu. Belə ki, bir sıra erməni ekspertləri və analitikləri günü bu gün də postmüharibə dövrünün tənzimlənməsi prosesini ermənilər üçün "təhlükəli tendensiya" kimi qələmə verirlər. Daha dəqiq desək, buna səbəb olaraq Azərbaycanın Qarabağ regionunda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlıları kontingentinin (RSK) nəzarət etdiyi ərazidə can verməkdə olan separatçı rejimin müqəddəratı ətrafında müxtəlif söz-söhbətlər gedir. Məsələ isə ondadır ki, Şarl Mişelin bəyanat mətnində qarabağlı ermənilərin "xüsusi statusları" barədə bir kəlmə də olsun deyilməyib.

### Sergey Lavrovun erməni həmkarı Ararat Mirzoyanla görüşü zamanı Minsk qrupunun "dəfn edildiyini" rəsmən bəyan etməsi ermənilərə ikiqat zərbə vurmuş oldu

Ancaq erməniləri qıcıqlandıran daha bir faktor da var - ATƏT-in Minsk qrupunun dolayı yolla siyasi məzarlığa gömülməsi. Çünki İrəvan son ana qədər ümid edirdi ki, ən azından, Avropa İttifaqı Şurası ATƏT-in Minsk qrupunun "əhəmiyyəti" barədə nə isə edəcək, onu Qarabağ gündəmində saxlayacaq və s. Fəqət, məlum Ukrayna hadisələri və Rusiya xarici işlər naziri




Sergey Lavrovun erməni həmkarı Ararat Mirzoyanla görüşü zamanı Minsk qrupunun "dəfn edildiyini" rəsmən bəyan etməsi ermənilərə ikiqat zərbə vurmuş oldu.

Brüsselin isə, ümumiyyətlə, adıçəkilən qrup haqqında heç bir fikir söyləməməsi həmin məsələnin üzərindən çarpaz xətlər çəkmiş oldu. Artıq Aİ də Minsk qrupunun perspektivsizliyini açıq-aydın nümayiş etdirmiş oldu.

Azərbaycana gəldikdə isə belə qənaətə gələ bilərik ki, bu gün rəsmi Bakının mövqeyi elə güclü siyasi-iqtisadi əsaslara söykənib ki, artıq Qərb öz təsirlərini göstərməkdə acizlik çəkir. Halbuki, həmin Qərb bir vaxtlar Azərbaycanı separatçılarla eyni masaya oturmağa çağırır, həmin istiqamətdə müxtəlif təzyiq rıçaqlarından istifadə edirdi. İndi isə vəziyyət başqadır və Bakının qətiyyəti "status" iddialarını ümumiyyətlə, gündəmdən çıxarılıb.

### Dövlət başçısının praqmatik siyasəti Azərbaycanın geopolitik qarşıdurmalar məkanına daxil olmasına sədlər qoyur

Bütün bunlarla paralel olaraq Prezident İlham Əliyevin uğurlu çoxvektorluluq siyasəti Rusiya-Azərbaycan münasibətlərində qəsdən törədilməyə çalışılan spekulyasiyaların qarşısını keçilməz baryer kimi almaqdadır. Dövlət başçısının praqmatik siyasəti isə Azərbaycanın geopolitik qarşıdurmalar məkanına daxil olmasına sədlər qoyur. Məhz bu vasitə ilə Azərbaycanın həm Qərb, həm də Rusiya ilə münasibətləri uğurlu tandemlər əsasında inkişaf etdirilir.

Bu amildən çıxış edərək biz aprelin 12-də Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən müşavirədəki çıxış və bəyanatlarını da xatırlaya bilərik. Ölkə rəhbəri qəti şəkildə bəyan etdi ki, "status" məsələsi ümumiyyətlə, aradan qaldırılıb və Ermənistan rəhbərliyi rəsmi Bakının irəli sürdüyü beş təklifi qəbul edir. Bununla da proseslərin məcrası daha dolğun istiqamətə doğru yönəlir və əlbəttə ki, Ermənistan mövcud vəziyyətdən düzgün istifadə etməzsə, yaxud hər hansı bir yeni vaxtuzadıcı iddialarla çıxışlar edərsə, bu, zaman onun dalanda qalma və əslində, siyasi məhvolma aqibəti qaçılmaz olacaq.

Artıq razılaşmalara görə vaxt daralır və aprelin son günləri də yaxınlaşır və İrəvan bu günlərdə bir az da tələsməli, sərhədlərin delimitasiyasından tutmuş Azərbaycanın ərazi bütövlüyünü tanımalı, habelə sülh danışıqlarına başlamağa hazır olduğunu əməli şəkildə icra etməlidir. Bunun üçün İrəvanın bir neçə günü qalıb və ondan səmərəli qaydada istifadə etməli, qoyulmuş vaxta çatmalıdır. Azərbaycan isə əlbəttə ki, hələlik (!) səbrlə, təmkinlə gözləyir...

***Rövşən RƏSULOV***

# GMO-ya qarşı mübarizə necə aparılmalıdır?

"Qida zəhərlənmələrinin ən çox müşahidə olunduğu fəsil yaz və yay aylarıdır. Həmçinin, zəhərlənmə səbəbləri müxtəlifdir. Tarladan süfrəyədək qida zəncirinin bütün mərhələlərində, istər istehsal, istər daşınma, istər saxlanma, istərsə də digər mərhələlərdə qida bioloji, kimyəvi, fiziki çirklənmələrə məruz qala bilir". Bu sözləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib.

Onun sözlərinə görə, bakteriyalar, viruslar, parazitlər və bunların toksinləri qida zəhərlənməsinin ən başlıca səbəblərindəndir: "GMO məhsulları ilə qidalanma sonrakı dönəmlərdə sağlamlığımız üçün ciddi təhlükələr yarada bilər. GMO (geni modifaksiya olunmuş orqanizm), gen mühəndisliyi vasitəsilə əldə olunmuş yeni bir orqanizmdir. Bir canlıda olmayan xüsusiyyəti digər bir canlının geninə vektor adlı daşıyıcı virus vasitəsilə köçürərək yeni bir növ orqanizm əldə olunur".



Asim Vəlizadə sözlərinə belə davam edib: "GMO dünyada ərzaq çatışmazlığına çarə kimi göstərilməyə çalışır. Lakin yanılmıramsa, 1996-cı ildə ilk GMO-lu məhsul satışa çıxarıldıqda statistikaya görə dünyada 300 minə yaxın ac insan vardı. Hal-hazırda bu rəqəm 1 milyarda yaxındır və dəyişən heç nə yoxdur. Halbuki hesabatlara nəzər yetirsək, təkcə Amerika və İngiltərədə il ərzində zibilə atılan yararlı qidalarla 1 milyarddan çox insanı doyurmaq olar. Ərzaq çatışmazlığı yox, ədalətsiz bölgü var. Məsələ aclıq məsələsi deyil, transmilli şirkətlərin maraqlarıdır. GMO əkini nəticəsində torpaq öz münbitliyini itirir, təbii bitki örtüyü sıradan çıxaraq biomüxtəliflik pozulur. Həmin torpaqlarda yenidən təbii toxum əkmək mümkün olmur. Nəticədə GMO əkinçiliyə yönələn dövlətlərin aqrar sektoru transmilli GMO toxum şirkətlərindən asılı vəziyyətə gəlir.

Daha çox geni dəyişdirilmiş qidalar qarğıdalı, pomidor, kartof, düyü, soya, buğda, balqabaq, günəbaxan, yer fıstığı və bəzi balıq növləridir. Bunlardan savayı banan, tut, çiyələk, gilas, ananas, qovun, qarpızla da bağlı bu kimi çalışmalar davam etdirilir, bəlkə də artıq satışa çıxarılıb. GMO-nun təsiri dərhal özünü göstərməsə də sonrakı dönəmlərdə ciddi fəsadlar törədəcəyinə dair geniş tədqiqatlar var. Ölkəmizə GMO-lu məhsulların gətirilməsi, yayılması, istehsalı qanunla qadağandır. Lakin buna baxmayaraq ölkəyə idxal olunan hazır qida məhsullarının tərkibinin GMO mənşəli olması böyük ehtimaldır. Hətta bəzi GMO-lu toxumları işbazlar hibrid sertifikatı ilə gətirərək əkdiyinə dair şübhələr də var.

Dünya üzrə ixrac olunan soyanın 90%-dan çoxu GMO-ludur. GMO-lu soya sosiska, kolbasa kimi qırmızı ətin istifadə olunduğu qidalarda, ətsuyu tabletlərində, fındıq-fıstıq əzməllərində, şokoladlı qidalarda, müxtəlif un məmulatlarında, süd tozu, hazır souslar və heyvan yemlərində istifadə olunur. Broyler toyuqları üçün də yem olaraq istifadə olunur.

Heyvanlar, xüsusilə də siçovullar üzərində aparılan uzun müddətli tədqiqatlar göstərir ki, mütəmadi GMO tərkibli məhsullarla qidalanmaq allergik reaksiyalara, onkoloji xəstəliklərə səbəb ola bilər".

***Ayşən Vəli***

# "Zəngəzur dəhlizinin vazkeçilməzliyi ən mühüm məsələdir"

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2022-ci ilin 1-ci rübünün yekunlarına dair çox müxtəlif və maraqlı bir çox mesajlar verdi". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Tahir Kərimli bildirib.

Onun sözlərinə görə, birinci rübdə iqtisadiyyatda artımın olması, bundan başqa investisiyalarla bağlı Azərbaycanın Qarabağda quruculuq işlərini aparması, xüsusilə yolların çəkilməsi, çay yataqlarının, su anbarlarının düzəldilməsi, hava limanlarının açılması və iqtisadi göstəricilərin də faizi olduqca artıb.

Bunların içərisində ən mühüm olan Zəngəzur dəhlizinin vazkeçilməzliyi ilə bağlı məsələdir. Bəzi xarici dairələr o cümlədən, müxalifət qeyd edirdi ki, artıq Şərqi Zəngəzuru Naxçıvana birləşdirən 53 kilometrlik yol Zəngəzur dəhlizinin alternatividir. Yəni bu da məsələnin baş tutmamasının səbəbidir. Amma cənab Prezident bildirdi ki, bu dəhliz mütləq açılmalıdır. Çünki ən birincisi bu 10 noyabr tarixində baş tutmuş üçtərəfli razılaşmada qeyd olunub.

Bildiyimiz kimi, artıq Ermənistan deputatları Qarabağa gəlmək istədikdə rus sülhməramlıları onları buraxmayıblar. Azərbaycan tərəfi deyib ki, bu proses baş tutsa həbs olunacaqlar. Cənab Prezident də bildirdi ki, bu proseslər Ermənistanın özünü dalana salması deməkdir. Dalana salınmış dövlət kimi isə heç bir dənizlərə çıxışlara olmayacaqdır.

Prezident birmənalı şəkildə bildirib ki, Brüssel görüşündə də Azərbaycan tərəfinin bütün şərtlərini Ermənistan qəbul edib. Son 30 ildə ilk dəfədir hər iki ölkənin Xarici İşlər Nazirlikləri danışıqlar aparır və sülh sazişinin üzərində işlədikləri bildirilib.

Eyni zamanda Azərbaycan tərəfi də qeyd edib ki, Ermənistan sərhədlərinə qədər 700 km yol çəkilib. Bundan əlavə dəmiryolunun çəkilməsi ilə də bağlı işlər aparılır. Bütün bunları nəzərə alsaq, cənab Prezidentin çıxışında bildirdiyi hər bir məqam mühüm əhəmiyyət kəsb edir".

***Səbinə Hüseynli***



*Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi- Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsində 442 mənzilin 30.03.2022-ci il tarixində güzəştlə satışı prosesi yerinə yetirilərkən kənardan müxtəlif şəxslər tərəfindən informasiya texnologiyaları sahəsində xüsusi kompüter proqram təminatlarından istifadə edilməklə mənzillərin seçimi prosesinə müdaxilə halları müşahidə edilib, Agentliyin şəffaf fəaliyyətinin təcəssümü kimi bu məsələnin araşdırılması üçün aidiyyəti üzrə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinə müraciət edilib.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Sosial mənzil sisteminə kibermüdaxilə edən "İT uşaqları" yaxalandı

## DTX MİDA-nın mənzil satışına müdaxilə edənləri məsuliyyətə cəlb edib

Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən SİA-ya verilən xəbərə görə, DTX-da ilkin araşdırmalar aparılaraq faktla bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 273.3.1 və 273.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən kompüter sisteminə və kompüter məlumatlarına təkrar qanunsuz müdaxilə) maddələri ilə cinayət işi başlanılıb.

### Kibercinayətkarlar aşkar olunaraq cinayət məsuliyyətinə cəlb edilib

Müəyyən edilib ki, Azərbaycan Respublikası vətəndaşları Məmmədov Elçin Elman oğlu, Hacıyev Ruslan Afiz oğlu, Hüseynov Firudin İlqar oğlu, Lətifzadə Yunis İltimas oğlu, Abdullayev Tərlan Tahir oğlu və Məmmədov Cavid Fəhrad oğlu digərləri ilə əlbir olub ayrı-ayrı qruplar halında Mənzil İnşaatı Dövlət Agentliyinin "Güzəştli mənzil" informasiya sisteminə daxil olmaq, oradakı məlumatları dəyişmək hüququ olmadan maddi maraq zəminində onlara müraciət etmiş şəxslərin güzəştli şərtlərlə mənzil əldə etmələrini təmin etmək məqsədilə xüsusi kompüter proqram təminatları hazırlayıb və ya uyğunlaşdırıb tətbiq





etməklə 30.03.2022-ci il tarixində "Güzəştli mənzil" informasiya sisteminə daxil olub və kompüter məlumatlarını qəsdən təkrar dəyişdirib qanunsuz müdaxilə etmiş, bu hərəkətləri ilə hüququ olan vətəndaşların ümumi və bərabər əsaslarla güzəştli mənzil əldə etmək imkanını məhdudlaşdırmaqla və dövlət orqanlarının normal fəaliyyətinə mane olmaqla əhəmiyyətli zərər vurublar.

Həmin şəxslər Cinayət Məcəlləsinin 273.3.1 və 273.3.2-ci maddələrində nəzərdə tutulan cinayət əməllərini törətməkdə şübhəli bilinərək təqsirləndirilən şəxs kimi cinayət məsuliyyətinə cəlb ediliblər. Cinayət işi üzrə araşdırmalar davam edir.

Hazırda Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən qeyd olunan məsələlərlə bağlı zəruri hüquqi prosedur tədbirlər yerinə yetirilir. Dövlət tərəfindən güzəştli mənzil satışı prosesinə kibercinayətlər yolu ilə və ya digər qanunsuz müdaxilə halları və belə əməllər nəticəsində vətəndaşların seçimindən yayındırılmış mənzillərə dair obyektiv hüquqi qiymət verilməsi təmin ediləcək. Araşdırmaların nəticələri barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

### "Kibermaklerlər mənzilləri alıb 10-15 min bahasına satırlar"

Qeyd edək ki, Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) onlayn mənzil satışında baş vermiş hallar ciddi ictimai narazılıq doğurmuşdu. Belə ki, 442 sosial mənzil çox qısa müddətdə internet üzərindən satılmışdı- bəziləri cəmi bir neçə saniyəyə. Bu cür satış sosial şəbəkələrdə ciddi müzakirələrə səbəb olmuşdu. İstifadəçilər prosesin cəmi bir neçə saniyəyə başa çatdığını və bunun praktiki olaraq mümkün olmadığını bildirirdilər.

Sosial şəbəkələrdə yayılan məlumatlara əsasən, sosial mənzil almaq istəyənlərin əksəriyyəti peşəkar proqramçılara müraciət etmişdi. Nəticədə, çox qısa müddətdə bütün mənzillərin satıldığı məlum olmuşdu. Bir çox mənzillərin satışı isə cəmi bir neçə saniyədə baş tutub.

"Ev almaq istəyən şəxslərin hardasa 90%-i proqramçılara müraciət etmişdi. 442 mənzil çox qısa müddətə- bəziləri cəmi 4-5 saniyəyə satıldı. Maklerlər bu işi biznesə çeviriblər, xüsusi yollarla evləri udub 10-15 min bahasına satırlar. Ortada bu qədər anormallıq, şübhə, iddia varkən, niyə düz-əməlli araşdırma aparılmır?"- deyə şəbəkə istifadəçilərindən biri yazmışdı. Çox keçmədi ki, məsələ ilə bağlı araşdırmalar aparıldı və işə DTX qarışdı. Və yuxarıda qeyd etdiyimiz kimi, artıq bununla məşğul olan bir şəbəkə ifşa olunub və cinayət məsuliyyətinə cəlb edilib. Proses davam edir.

### MİDA-nın sosial mənzillərin satışı ilə bağlı açıqlaması belə idi

Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi - Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsinin 4 saylı binası üzrə 64, 6 saylı binası üzrə 44, 18 saylı binası üzrə 44, 21 saylı binası üzrə 44, 22 saylı binası üzrə 39, 23 saylı binası üzrə 39, 24 saylı binası üzrə 24, 25 saylı binası üzrə 72 və 26 saylı binası üzrə 72 mənzilin, ümumilikdə 442 mənzilin ipoteka kreditindən istifadə etməklə, həm də öz vəsaiti hesabına ödəniş üsulu ilə güzəştlə satışı prosesinə 30.03.2022-ci il tarixində saat 11:00-da başlanılmış və mənzillərin seçimi qısa müddətdə uğurla başa çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 24.05.2017-ci il tarixli 1418 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq satışa çıxarılan 442 mənzilin seçimi "Elektron hökumət" portalı (www.e-gov.az) üzərindən "Güzəştli mənzil" elektron sistemi vasitəsilə bərabər şəraitdə etibarlı, təhlükəsiz, şəffaf və fasiləsiz iş rejimində həyata keçirilmişdir. "Güzəştli mənzil" sistemində elektron kabinet əldə etmiş şəxslərin sayı 24 761 nəfərdir.

Bugünkü satış zamanı 442 mənzilin seçimində iştirak edənlərin sayı 8 939 nəfər olmuşdur. Bu saata olan məlumata görə seçilmiş 442 mənzilin 257-i vətəndaşlar tərəfindən uğurla imzalanaraq ərizələri təqdim edilmişdir.

Mənzillərin seçimi prosesi Mənzil İnşaatı Dövlət Agentliyinin inzibati binasında Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nümayəndələrinin iştirakı ilə müşahidə edilmişdir. Seçilmiş mənzillər barədə statistik məlumatlarla aşağıdakı keçid vasitəsilə tanış ola bilərsiniz.

https://mida.gov.az/az/statistics/statistics_34

Ekspert: "Sistemə peşəkar üsullarla müdaxilə edilib"

Məsələ ilə bağlı müstəqil ekspertlər fikirlərini bildiriblər. Azərbaycan İnternet Forumunun rəhbəri, informasiya texnologiyaları üzrə ekspert Osman Gündüz MİDA sisteminə müdaxilə haqqında fikirlərini belə izah edib:

MİDA-nın sonuncu onlayn mənzil satışı prosesindən sonra proqramçılara qarşı tələ hazırlandığı haqqında demişdim. Görünür ki, bununla bağlı deyilənlər reallaşır.

Bu gün MİDA və DTX güzəştli mənzil satışına müdaxilə ilə bağlı birgə məlumat paylaşıblar. Məlumata ilkin nəzər salmaqla aşağıdakı qənaətə gəlmək olar :

"MİDA "Güzəştli mənzil" informasiya sisteminə müdaxilə müşahidə edib və bunun araşdırılması üçün DTX-ya özü müraciət edib. Əgər MİDA özü müraciət edibsə demək, "Güzəştli mənzil" informasiya sisteminə ciddi müdaxilədən, qeyri-qanuni müdaxilədən söhbət gedir. Yəni, burada adi botlardan deyil, "Güzəştli mənzil" sisteminin ilkin kodlarını sındırmaqla və ya hansısa daha "ağıllı" üsullarla sistemə müdaxilədən söhbət gedir.

Sonuncu satışda narazı qalanların çoxusunun proqramçılar olması onu deməyə əsas verirdi ki, MİDA tətbiq etdiyi ənənəvi təhlükəsizlikdən əlavə DEMO versiya ilə əsas versiyanın ilkin proqram kodlarını da dəyişib.

Sistemin proqram təminatının ilkin kodları dəyişdirildikdən sonra sistemdən adi botlarla istifadə mümkünsüz olduğundan, paylaşılan məlumatda "sistemə daxil olmaqdan və kompüter məlumatlarını dəyişməkdən" söhbət getdiyindən, düşünmək olar ki, sistemə daha peşəkar üsullarla qeyri-qanuni müdaxilə olub".

Bəs sonuncu güzəştli mənzil satışının nəticələri ləğv oluna bilərmi? Ekspertin fikrincə, bu DTX və MİDA-nın birgə araşdırmasının yekununda bəlli ola bilər: "Yəni, müəyyən olunsa ki, baş verənlər nəticələrə təsir edib, onda nəticələrin ləğvinin gündəmə gətirilməsi doğru olardı. Baş verənlər onu göstərir ki, MİDA bir daha sisteminin İT auditini təşkil etməli, təhlükəsizliyini gücləndirməli, daha müasir texnologiyalardan istifadə etməli, peşəkar mütəxəssisləri cəlb etməlidir. Baş verənlər həm də bir daha onu göstərir ki, güzəştli mənzil satışı sistemi ciddi olaraq yenilənməlidir".

Ekspert bununla bağlı təkliflərini bildirib: "Onlayn satış prosesi insan amili olmadan reallaşan şəffaf, korrupsiya riski az olan sistem olmasına baxmayaraq görsənir ki, burada İT bacarıqlarla bağlı öncədən bəlli olan ədalətsizlik var və bu baxımdan hökumət əlavə, alternativ güzəştli mənzil satışı üsulu təklif etməlidir. Satışdan sonra, MİDA bəzi məqamları (fərdi məlumatlarla bağlı hissələri çıxmaq şərtilə) onlayn satış prosesini əks etdirən bütün log faylları mütləq açıqlamalıdır. Ən tez və ən gec satılan mənzillərlə bağlı log faylları ayrıca qeyd etmək vacibdir. Sistemin dayanıqlığı və təhlükəsizliyi ilə bağlı güvənli qurumların açıqlamaları verilməlidir. Süni seçimlərin, robot seçimlərin, qeyri-qanuni müdaxilələrin qarşısını almaq üçün müntəzəm yeniliklər edilməlidir. Onlayn satış prosesi sosial mediada və TV-də canlı yayımlanmalıdır".

Şübhə yoxdur ki, istintaq prosesi hər şeyti üzə çıxaracaq, ədalət bərpa olunacaq və sosial mənzillərin satış sistemi təkmilləşdiriləcək. Dövlət üzərinə düşəni edir, vətəndaşlar isə bu işə vicdanla yanaşmalıdırlar. Bu mənzillər ilk növbədə hədəf auditoriyasına çatmalıdır və çatacaq da.

**Elçin Bayramlı**

# Araşdırma yekunlaşdı: Maradonanın həkimlərini ağır cəza gözləyir!



*Əfsanəvi futbolçu Dieqo Maradonanın ölümü ilə bağlı araşdırma yekunlaşıb. Qol.az "La Gazzetta dello Sport"a istinadən xəbər verir ki, prokurorluq səkkiz nəfərə qarşı qəsdən adam öldürmə ittihamı irəli sürüb.*

Mənbənin məlumatına görə, Maradonanın həkimi, onunla işləyən psixiatr və daha altı nəfər tibb işçisi məhkəmə qarşısına çıxarılacaq. İttiham təsdiqini taparsa, onları 5 ildən 25 ilə qədər həbs cəzası gözləyir. Prokurorluq hesab edir ki, həkimlərin öz işinə səhlənkar və ehtiyatsız yanaşması futbolçunun ölümü ilə nəticələnib. Onların fikrincə, doğru tibbi müdaxilə ilə Maradonanı həyatda saxlamaq olardı. Hələlik məhkəmənin vaxti müəyyəbləşməyib.

Xatırladaq ki, Maradona 60 yaşında vəfat edib. Onun xroniki ürək çatışmazlığından vəfat etdiyi bildirilib.

# Soyuq su ilə duş qəbul etməyin insan orqanizminə faydaları



***Bədənimiz soyuq su ilə təmasda olarkən qan dövranı sürətlənir. Əzilmiş yerə buz qoyulmasının əsas səbəbi də məhz budur. Soyuq buz tətbiq edildikdə, əzilmiş bölgədə qan dövranı sürətləndiyi üçün zədələnmiş hissə daha tez sağalır. Bundan əlavə, soyuq duş qəbul etmək əzələ ağrılarını azaldır.***

Quru dəriniz və dəri problemləriniz varsa, isti duş qəbul etmək bədəndə qaşınmaya səbəb ola bilər. Bu qaşınma ilə mübarizə aparmaq üçün mümkün qədər soyuq su ilə duş qəbul etmək vacibdir. Dərinizin nəmini qorumaq üçün duşdan sonra nəmləndirici krem istifadə etmək məsləhətlidir.

tibbi saytların yazdığına görə, bədənimizdə iki növ piy toxumaları var - ağ və qəhvəyi. İnsanın çəkisi artdıqca ağ yağ toxumaları artır. Qəhvəyi yağ toxuması isə orqanizmdə enerji anbarı rolunu oynayır. Soyuq duş qəbul etdiyiniz zaman qəhvəyi yağ toxuması aktivləşir. Aktivləşdirilmiş piy toxuması ağ yağ toxumasının sağlam səviyyədə qalmasına kömək edərək arıqlamağa da şərait yaradır. Həftədə 2-3 dəfə soyuq duş qəbul etmək, idmanla məşğul olmaq və sağlam qidalanmaq maddələr mübadiləsini tarazlaşdırır.

Soyuq duş orqanizmdə ani fiziki şok və stres yaradır. Əgər mütəmadi olaraq soyuq duş qəbul edirsinizsə, "indurasiya" adlı bir proses başlayır. Bu müddət ərzində sinir sisteminiz kiçik dozalarda fiziki şok və stresə məruz qalmağa öyrəşir və sizi hazırlayır. Nəticədə stresli bir vəziyyətlə qarşılaşdığınız zaman bədəniniz və beyniniz buna hazır olur.

Eyni zamanda, soyuq duş qəbul etmək qanda endorfin tənzimlənməsini artırır, beləliklə, özünüzü daha xoşbəxt və enerjili hiss edirsiniz.

# Məşhur serial 2023-cü ildə yayımlanacaq



***Baş rollarda məşhur türk aktyor Haluk Bilginer, Yasemin Kay Allen və britaniyalı aktyor Ethan Kayın çəkildiyi "Türk detektivi" detektiv dramının çəkilişləri bu ay İstanbulda başlayacaq.***

SİA xarici mətbuata istinadən xəbər verir ki, Haluk Bilginerin canlandırdığı dedektiv Çetin İkmen və komandası Amerika və Türk prodüser şirkətlərinin ortaqlığı ilə çəkiləcək 8 seriyalı serialda cinayətkarların arxasınca gedəcək. Serial 2023-cü ildə yayımlanacaq.

*Ayşən Vəli*

# Azərbaycanda nə qədər qadın məhbus var?



***Hazırda Azərbaycanda cəzaçəkmə müəssisələrdə cəza çəkən qadın məhbusların və yetkinlik yaşına çatmayan məhkumların sayı açıqlanıb.***

SİA xəbər verir ki, bu barədə Ədliyyə Nazirliyi tərəfindən qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün yeni inşa edilən penitensiar müəssisəsinə təşkil olunan mediatur zamanı açıqlama verilib. Qeyd olunub ki, 4 saylı cəzaçəkmə müəssisədə ümumilikdə 426 qadın, yetkinlik yaşına çatmayanların Tərbiyə Müəssisində isə 21 nəfər cəza çəkir.

*Arzu Qurbanzadə*

# 2,6 milyon dollarlıq brilyant boyunbağı



Britaniyalı dizayner Viktoriya Bekhemin oğlu Bruklin Bekhemin toyunda boyunbağı taxılıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, onun qiyməti və karatı məlum olub. Belə ki, 2,6 milyon dollarlıq və 21,5 karatlıq brilyant boyunbağının 23 yaşı var.

*Ayşən Vəli*

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220